Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Azərbaycan ədəbiyyatının qeyri-adi istedad sahibi
# Cəfər Cabbarlı

**Cəfər Cabbarlının 125 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Nərgiz Məcidova**
**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycan ədəbiyyatının qeyri-adi istedad sahibi -** Cəfər Cabbarlının 125 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. Məmmədli R. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 60 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

# Giriş

XX əsrin ilk onilliklərində Azərbaycan mədəniyyətinin böyük nümayəndələri Mirzə Ələkbər Sabir poeziyada, Cəlil Məmmədquluzadə nəsrdə və komedioqrafiyada, Üzeyir Hacıbəyov musiqidə və Əzim Əzimzadə rəssamlıqda nə qədər dolğun, gerçək milli xarakter milli kolarit, milli tiplər yaratmışdısa XX əsrin otuzuncu illərində bu işi Cəfər Cabbarlı davam etdirmişdir.

Azərbaycan ədəbiyyatının qeyri-adi istedad sahibi olan, zəngin və çoxsahəli yaradıcılıq yolu keçmiş nümayəndələrindən biri olan Cəfər Cabbarlı ədəbiyyat tariximizdə bir nasir, qüdrətli dramaturq, mədəniyyət tariximizdə ssenarist və librettolar müəllifi kimi özünəməxsus yer tutur. Poeziyamızda yaratdığı əsərləri ilə lirik-satirik şair kimi də bir iz qoymuşdur. “Məktəb” jurnalında dərc edilən “Bahar” adlı ilk mətbu şeiri ilə o ilin bütün fəsillərinin qəribəliklərini, cazibədarlığını tərənnüm etmişdir.

Novbahar oldu, günəş
şölələnib nur saçır,
Qar ərir, sellər axır,
ot göyərir səhrada,
Yeni çıxmış gülə
baxdıqca da bülbül dil açır,
Gül budağına qonub
nəğmə oxur azadə.

Lirik və epik şeirləri, “Qız qalası” epik-dramatik üslubda yazılmış poeması onun poetik irsindən soraq verən sənət nümunələrindəndir. Hətta tədqiqatçılar belə bir fikir də yürüdürlər ki, C.Cabbarlının şeirlərinin rəngarəngliyinə sevimli müəllimi Abdulla Şaiqin gözəl lirik şeirləri təsir etmişdir. Yazdığı şeirləri ilə şəffaf, ətirli bir bahar havası kimi oxucusunun könlünü oxşamışdır.

C.Cabbarlı yaradıcılığını oxuculara yaxından tanıtmaq üçün hazırladığımız bu metodiki vəsait iki hissədən ibarətdir. Birinci hissədə Cəfər Cabbarlının həyat və yaradıcılığı haqqında məlumat verilir, bir-birindən maraqlı əsərlərindən söhbət açılır. İkinci hissədə yubilyarın yaradıcılığının kitabxanalarda keçirilməsinə dair müxtəlif tədbir formaları haqqında nümunələr verilir.

## Həyat və yaradıcılığı

Bir həqiqət, bəlkə canlı bir xəyal kimi,
Müqəddəsdir Cabbarlının söz ülviyyəti,
Qanad gərsin üfüqlər bir qartal kimi,
Xalqımızın böyük qəlbi, böyük sənəti.

*Səməd Vurğun*

Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Cəfər Cabbarlı yaradıcılığı zaman etibarilə çox az olsa da, siyasi-ictimai cəhətdən çox əhəmiyyətli bir dövr olan 1915-1934-cü illər arasındakı iyirmi illik bir tarixi mərhələni əhatə edir. Mühüm ictimai-siyasi hadisələrlə dolu bu tarixi dövrüdə Cabbarlının ədəbi fəaliyyəti Azərbaycanda, xüsusən Bakıda kapitalizm münasibətlərinin sürətlə inkişaf etdiyi, Azərbaycanının fəhlə-kəndli sovet respublikasına çevrildiyi illərə təsadüf edir. Bu illərdə ədibin yaradıcılıq yolu çətin və ziddiyyətli olsa da, əsasən, yüksəliş və tərəqqi dolu olmuşdur. Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının geniş şöhrət tapmış nadir simalarındandır ona görə ki, yaşadığı zamanda milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirmişdir. Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan Cəfər Cabbarlının əsərləri milli teatrda mühüm hadisə kimi hər zaman dəyərləndirilmiş, uzun

illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynamışdır. Ədəbi-mədəni proseslərin fəal qurucularından biri olan sənətkar yaratdığı, güclü xarakterlər və koloritli obrazlarla bədii-estetik fikir salnaməmizə misilsiz töhfələr vermişdir. O, şəxsiyyət və milli azadlığın, istiqlal ideallarının tərənnümçüsü kimi, çoxcəhətli ədəbi və ictimai fəaliyyəti boyunca daim xalqımızın dünya mədəniyyəti səhnəsində layiqli mövqe qazanmasına çalışmışdır. 1899-cu il martın 20-də Bakı quberniyasının 110 km-də yerləşən Xızı kəndində kəndli ailəsində anadan olan yazıçının atası Qafar Cabbarlı görmə qabiliyyətini itirdiyindən, bir müddət sonra ailəsi ilə birgə Bakıya "dağlı məhəlləsi" adlanan yerə köçmüşdür. Üç yaşı olanda atası vəfat edən Cəfərin evlərinin yükü anası Şahbikə xanımın üzərinə düşmüşdür. Buna baxmayaraq anası Cəfəri təhsildən məhrum etməmək üçün onu əvvəlcə məhəllə mollasının yanında "çərəkə" oxumağa, bir müddət sonra isə molla Qədirin yanına quran oxumağa qoymuşdur. Mollaxananın ona bir şey vermeyəcəyini başa düşən Cəfər isə başqa uşaqlar ilə birlikdə 1905-ci ildə "*Starıy Poçtovı-25*"- də Hacı Məmmədhüseyn Bədəlovun şəxsi mülkündə açılan üç sinifli "7-ci müsəlman və rus" məktəbinin birinci sinfinə daxil olmuşdur. Cəfərin ilk müəllimləri pedaqoq-yazıçı *Süleyman Sani Axundov, Abdulla Şaiq, Rəhim bəy Şıxlinski, Əliməmməd Mustafayev* olmuşlar. 1908-ci ildə "7-ci müsəlman və rus" məktəbini bitirən Cəfər bir müddət ailəyə kömək etdikdən sonra, Bakıda Alekseyev adına "*3-cü ali ibtidai"* məktəbə daxil olaraq 1915-ci ilin aprelin 2-də bu məktəbi bitirir. Elə həmin il Bakı Politexnik Məktəbinin elektro-mexanika şöbəsinə daxil olan yazıçı 1920-ci il mayın 6-da təhsilini başa vuraraq şəhadətnamə və attestatını alır. Sonra Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə daxil olur. Lakin o, həmin fakültədən öz ərizəsi ilə çıxır. 1923-cü ilin sentyabrından

Cabbarlı səhnə aləmi və teatr tarixi ilə yaxından tanış olmaq məqsədilə Bakı Türk Teatr Məktəbində mühazirələrə qulaq asmağa başlayır. Eyni zamanda 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin tarix şöbəsində təhsilini davam etdirir.1915-1920-ci illəri Cəfər Cabbarlının təkcə tələbəlik illəri deyil, ədəbiyyata, sənətə gəldiyi dövr də hesab etmək olar. O, bu illərdə bir-birinin ardınca "Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Trablis müharibəsi"və ya "Ulduz", "Ədirnə fəthi", "Bakı müharibəsi", "Aydın" kimi əsərlərini qələmə alır, lirik və satirik şeirlərlə, bir sıra hekayələrlə müxtəlif mətbuat orqanlarında çıxış edir.

1924-cü ildə Cəfərin böyük qardaşı Hüseynqulu vəfat edir. Bu ölüm Cəfəri çox sarsıdır, çünki Hüseynqulu ona qardaşlıqla yanaşı ata əvəzi idi. 1922-ci ildə əmisi qızı Sona xanımla ailə həyatı quran Cəfərin bu evlilikdən Aydın və Gülarə adlı 2 övladı olur. Onun böyük oğlu Aydın Cabbarlı tibb elmləri namizədi olur. Qızı Gülarə Cabbarlı isə filoloq, həmçinin Cəfər Cabbarlının ev-muzeyinin direktoru olur.

C.Cabbarlı yardıcılığının əlamatdar cəhətlərindən biri onun əsərlərində milli xüsusiyyətlərin qorunub saxlanmasıdır. Mahiyyət etibarilə yaradıcılığında müasirliyi və milliliyi birləşdirməsi də Cabbarlı yaradıcılığını əbədi etmişdir. C.Cabbarlı yaradıcılığının əbədiliyi, bəşəriliyi onun milliliyi hesab edilir həm də ona görə ki, o, böyük həmkarı Hüseyn Cavidlə bir vaxtda yazıb yaratmışdır. H.Cavid dramaturgiyası daha çox romantikliyi ilə yadda qalsada Cabbarlı yaradıcılığı daha çox milliliyi ilə yadda qalmışdır. Cabbarlı əsərlərində daha çox "Azərbaycan, Bayrağım" deməsi bunu göstərir.

*Buraxınız, seyr edəyim düşünəyim, oxşayayım,*
*Şu sevimli üç boyalı, üç mənalı bayrağı.*
*Mələklərin qanadımı üzərinə kölgə salan?*
*Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!*
*Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?*
*Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.*
*Fəqət bizim bayrağımız ucaları pək seviyor,*
*Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.....*

Şeirin tam variantı F.Köçərli adına Respublika Uşaq kitabxanasının clb.az saytında müəllifin kitabının pdf variantında verilmişdir.
*https://drive.google.com/file/d/1GwrWxD2Q6P-L7KH6fGw-OitZevzGRO4G/view*

Milli istiqlal ideyalarına sadiqliyi, ictimai fəaliyyəti, mübariz ruhlu əsərləri ilə Xalq Cümhuriyyətinin yaranmasında və onun təşkilində müstəsna xidmətlər göstərmiş, qələmə aldığı Aydın əsərində Dövlət bəy, Balaxan, Sevil də Məmmədəli bəy Əbdüləli bəy, 1905-ci ildə Salamov kimi surətləri ilə milli səciyyə daşıyan obrazlar yaratmışdır.

1920-ci illər Cəfər Cabbarlı dramaturgiyası üçün dərin sarsıntılar, iztirablı axtarışlar, eniş yoxuşlar mərhələsi hesab olunur ona görə ki, 1918-1920-ci il Azərbaycan Demokratik Cümhuriyyəti dövründə bir çox yazıçılar kimi, gənc Cabbarlının da milli iftixar, qürur və vətənpərvərlik ruhu ilə yazdığı *"Ulduz və ya Trablis müharibəsi", "Ədirnə fəthi"* pyesləri əvəzolunmaz əsərlərdir. Hər iki əsərin mövzusu türklərin yadellilərə qarşı apardığı rəşadətli mübarizələrdən götürülmüşdür. Obraz və mövzu yaxınlığını nəzərə alaraq "Ədirnə fəthi" pyesini " Trablis müharibəsi və ya Ulduz" pyesinin davamı hesab etmək olar. Bu əsərlər türk məişətini, türk qəhrəmanlığını və şücaətini təbliğ etdiyi üçün hələ yazıldığı gündən tənqidçilər tərəfindən "pantürkist", "panislamist"

təmayüllü əsərlər kimi qarşılanmış, az sonra tamamilə səhnədən çıxarılmışdır.

"Ulduz" və "Ədirnə fəthi" əsərlərini yazanda müəllif ömrünün gənclik çağında - 18 yaşında, yaradıcılığının ilkin mərhələsində, Bakı Politexnik məktəbinin tələbəsi olmasına baxmayaraq, Türkiyə tarixinin, 1911-1913-cü illərdə Balkan müharibəsi dövrünü mətbuat məlumatları əsasında diqqətlə izləmişdir. Bəhrələndiyi tarixi faktlara yaradıcı münasibət bəsləyərək, problemlərin və xarakterlərin ziddiyyətli məqamlarını üz-üzə qoyaraq oxucuları və tamaşaçıları təsir altına, gərgin həyəcanlı anlara sala biləcək, bu gün də Azərbaycanda mövcud olan ictimai vəziyyətlə bağlı əlahiddə aktuallıq kəsb edən bu dəyərli səhnə əsərlərini yaratmışdır.

## Yubiley tədbirlərinin keçirilməsi

Cəfər Cabbarlının 125 illik yubiley ilə əlaqədar uşaq kitabxanalarında yubilyarın yaradıcılığını geniş təbliğ etmək üçün maraqlı tədbirlər həyata keçirilməlidir. Kitabxanalarda tədbirlə bağlı sərgilərin təşkili vacibdir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar: *"Ecazkar sənətkar ömrü", "Sənətinin qüdrəti, sözünün ülviyyəti", "Sabaha boylanan düha – Cəfər Cabbarlı"* və s. Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat formasının ən geniş yayılmış üsuludur. Sərgilər həcminə, tərtibat texnikasına və müddətinə görə bir-birindən fərqləndirilir.

Hər bir kitabxana öz sərgi modelini fəaliyyətinə və vəzifəsinə uyğun olaraq qurur. Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri, CD məlumatları əks etdirilir ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırır.




*Cabbarlı Cəfər Seçilmiş əsərləri. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM)*

Kitab sərgisində sərginin ümumi başlığı və yarımbaşlıq, tövsiyə olunan ədəbiyyat, sitat, mövzu haqqında izahlı mətnlər, şəkil və foto illüstrasiyalar da verilir. Ümumi başlıq sərginin mövzusunu müəyyən edir və onun əsas məzmununu aydınlaşdırır. Sərginin sərlövhəsi müəyyənləşdirildikdən sonra burada əks etdirilməsi lazım gələn məsələləri dəqiqləşdirmək lazımdır. Həmin məsələlər sərgidə bölmə və yarımbölmələr şəklində verilməlidir. Bölmələrin və yarımbölmələrin sərlövhələri dəqiq seçilməli, bölmənin məzmunu aydın əks etdirilməlidir. Sərginin daxili bölmələrinin məzmunu və ardıcıllıq mövzunun xarakterindən asılıdır.

a) çap əsərlərinin əhəmiyyətini və elmi dəyərini;

b) sərgidə mövzunun ayrı-ayrı məsələlərinin əks etdirilməsi ardıcılığını

Sərgidə materialların düzülüşündə simmetriyadan danışarkən qeyd olunmalıdır ki, burada nümayış etdirilən kitabların ölçüsü, onların cildlərinin rəngi, şəkillərin məzmunu, qarşılıqlı münasibəti və s. nəzərə alınmalıdır. Çünki kütləvi təbliğat məqsədilə nümayiş etdirilən hər hansı əşya və predmet təkcə zahiri parlaqlığı ilə deyil, eyni zamanda özünün simmmetriyası, məna ifadə etməsi və estetik təsiri ilə diqqəti cəlb edir. Ona görə də sərgidə eyni rəngli, eyni ölçülü kitabların, həmçinin oxşar məzmunlu və eyni ölçülü şəkillərin yanaşı düzülməsi məqsədəuyğun deyildir. Əlbəttə, burada ölçünün və rənglərin nümayiş etdirilməsi nəzərdə tutulmur.

Sərgi :


CƏFƏR
CABBARLI
Mən bir susmaz duyğuyam ki...
tap.az


CƏFƏR CABBARLI
Hekayələr


CƏFƏR
CABBARLI
Əsərləri
III cild


Cəfər Cabbarlının
TƏRCÜMƏLƏRİ


Cəfər Cabbarlı
Turan ellərinə salam


SONA
CABBARLI
ONU KİM
UNUDAR
"XAN" XATİRƏ ƏDƏBİYYATI 1


CƏFƏR CABBARLI
MƏN BİR SUSMAZ
DUYĞUYAM Kİ...


Asif Rüstəmli
CƏFƏR
CABBARLI:
Həyatı və mühiti


CƏFƏR CABBARLI
Əsərləri








https://drive.google.com/file/d/1GwrWxD2Q6P-L7KH6fGw-OitZevzGRO4G/view

https://drive.google.com/file/d/1HqBKFM2kk57TWa04IEaMU_Z7XKcftGS7/view

https://drive.google.com/file/d/1GwrWxD2Q6P-L7KH6fGw-OitZevzGRO4G/view

https://drive.google.com/file/d/1UHDQnjFSgk9DtFXkQmU9yJtji_CXFxPm/view

Cəfər Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli klassiklərindən biridir. O, Mirzə Fətəli Axundzadə ilə başlanan milli dramaturgiyanın sadəcə davamçısı, varisi olmamış, eyni zamanda onu inkişaf etdirib zənginləşdirərək yeni mərhələyə yüksəltmişdir. Qüdrətli sənətkar fikir tariximizdə həmdə şair kimi tanınır. Cümhuriyyət dövründə milli vətənpərvərlik ruhunda şeirlər yazan Cabbarlının lirik parçalarına bir çox gözəl mahnılar da bəstələnmişdir.

Bir şair olaraq Cəfər Cabbarlı yaradıcılığı üçün daha çox lirik-romantik və satirik şeirlər səciyyəvidir.

Cəfər Cabbarlının 1969-cu ildə nəşr edilən 3 cildlik kitabı əsasında 2004-cü ildə təkrar nəşr edilmiş 4 cildlik kitabının

birinci cildində böyük söz ustasının şeirləri, əfsanəvi motivlər əsasında qələmə aldığı "Qız qalası " poeması eləcə də hekayələri toplanmışdır.

## Görkəmli şəxslər Cəfər Cabbarlı haqqında

Cəfər Cabbarlı ədəbiyyatımızın, mədəniyyətimizin böyük dahi insanlarından biridir. Azərbaycan ədəbiyyatının, Azərbaycan milli şüurunun inkişafında onun nə qədər böyük xidmətləri olubdur! Onun yaratdığı əsərlər neçə - neçə nəsilləri tərbiyə edib və yüksəldibdir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Cəfər Cabbarlı Azərbaycan səhnəsinin ən parlaq bir yaradıcısı idi.

**Hüseyn Cavid,**
*yazıçı, dramaturq*

Məncə, Cəfər Cabbarlı sənəti bizim sovet dövrü mədəniyyətimizin qəhqəhə pilləsidir.

***

C. Cabbarlı XIX və XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən nadir simalarından biridir. Cabbarlı öz yaradıcılığının vüsəti, sənət xəzinəsinin zənginliyi etibarilə Mirzə Fətəli Axundovdan və Cəlil Məmmədquluzadədən (Molla Nəsrəddin) sonra XX əsr ədəbiyyatının ən görkəmli simasıdır. Cabbarlı Azərbaycan klassik dramaturgiyası və klassik şeiri zəminəsində yetişmiş, milli ədəbiyyatımızın ən gözəl ənənələrini inkişaf etdirmiş, yeni bir dramaturgiya ədəbi məktəbini yaratmış bir şəxsiyyətdir.

**Səməd Vurğun**

Cəfər Cabbarlının adı çəkiləndə sadəcə dillər deyil, canlı ürəklər danışır... Nə üçün? Çünki o, ürəkləri fəth edən bir sənətkardır... O, həyat və mübarizə nəğməkarı idi. O, yalnız qəhrəmanları - öz zəhməti, işi və hünəri ilə tarixi dəyişən, qabaqcıl və inqilabi əməllərlə yaşayıb yaradan qəhrəmanları sevərdi, onları tərənnüm edərdi. O, özü də böyük bir qəhrəman idi”.

**Səməd Vurğun**

“Cabbarlının dili bugünkü Azərbaycan-türk ədəbi dilinin başlıca nümunələrindən biridir. Səhnə dilimizi Cabbarlı əbədiləşdirmiş və azərbaycanlaşdırmışdır”.

**Əli Nazim**

“Cəfərin əsərləri yalnız istirahət etmək, "ruhi qida” vermək ilə kifayətlənməyərək, oxucu və tamaşaçısını öyrətmək, onu tamamilə dəyişmək iqtidarına malik idi. Cəfərdə tarixdə az-az insana məxsus olan bir sənət qüdrəti var idi. O, oxucusunu, tamaşaçısını yalnız bir an üçün deyil, həmişəlik öz təsiri altına alırdı”.

**Məmməd Kazım Ələkbərli**

Fəqət ölən deyil onun sənəti
Bağlamış adına əbədiyyəti

**Mikayıl Müşfiq,**

“Cabbarlının yaradıcılığında bütün xalqın həyatı öz əksini tapır. O, xalqın keçmişini, bugününü, gələcəyini, məhz dövrünün fikir zirvəsində dayanaraq təsvir edən bir sənətkardır... Əgər Cabbarlının yaratdığı bədii lövhələrin mənasına və mahiyyətinə daha dərindən yanaşılarsa, onun həqiqi mənada milli bir dramaturq olduğu anlaşılır”.

**Mehdi Hüseyn**

Cəfər Cabbarlı əsərləri o təzadlı, mürəkkəb dövrün dramatizmini, qəhrəmanlıq ruhunu tarixi mübarizə və quruculuq pafosunu bizə olduğu kimi, hər cür ehkamdan, təhrifdən və konyukturadan qoruyaraq çatdırmışdır.

**Yaşar Qarayev**

"Od gəlini"ni Cəfər "Çeka" həbsindən çıxdıqdan sonra yazmışdır. O, vaxtilə istər məmləkətdə, istərsə məmləkət xaricində səs salmış bir hadisəyə görə "müsavatçılar" qrupu ilə birlikdə həbs edilmişdi. Bu əsərdə atəşpərəst Azərbaycanın müsəlman-ərəb istilasına qarşı mübarizəsi təsvir edilir. Yeni sahiblər məmləkətin bütün zənginliklərini çapıb aparırlar.

***

Cəfər Cabbarlını hələ kiçik ikən, Bakının yeddinci şəhər məktəbində oxuduğu zamandan tanıyırdım. O mənim ən çox sevdiyim şagirdlərimdən idi.

***

O, gənc yaşlarında, qüvvət və enerji ilə dolu ikən, 1934-cü ilin sonunda vəfat etdi. Onu dövlət hesabına dəfn etdilər. Azərbaycan komissarları onun tabutu başında növbəyə durdular və bununla onun kommunist deyilkən, kommunistliyi mənimsədiyini göstərmək istədilər. Kommunist olmadığını

göstərən hadisələrdən biri də onun Moskvada toplanan ədiblər qurultayında söylədiyi məşhur nitqdir. Bu nitqində o, "həqiqi sənətkar və yazıçının şanına yaraşmayan sosial sifariş" üsulunun, yəni şairləri hökumət tərəfindən müəyyən mövzularda yazmağa məcbur edilmənin əleyhinə çıxmışdır.

**Məhəmməd Əmin Rəsulzadə**

Cəfərin dostlarının sayı artdıqca, köhnə fikirli adamlar içərisindəki düşmənlərinin sayı da artırdı, bu həqiqi vətənpərvəri "millətə və əqidəsinə xain"- deyə səsləyirdilər... O, yersiz hücumlara yüksək yaradıcılıq silahı ilə cavab verərək böyümüş və Cəfər Cabbarlı olaraq tanınmışdı. Cəfərin düşmənləri arasında sənət və yaradıcılıq rəqibləri də az deyildi.

**Məmməd Səid Ordubadi**

***Kitab icmalı:***

*Kitabxanada Cəfər Cabbarlıya həsr edilmiş Sona Cabbarlının* xatirə ədəbiyyatı silsiləsindən olan *"Onu kim unudar"* adlı kitabın icmalını keçirə bilərik. Kitab Azərbaycan ədəbiyyatında, teatrında, kinosunda önəmli yer tutan çox erkən yaşda öz missiyasını başa vuran, Cəfər Cabbarlı haqqındadır. Xatirələri yazan isə uşaqlıqdan ölümünə qədər onun yanında olan əmisi qızı Sona Cabbarlıdır. Sona həmdə onun həyat yoldaşı olmuşdur.

**Cabbarlı, Sona. Onu kim unudar . - Bakı : Hədəf Nəşrləri, 2014. - 152 s. - ("XAN" Xatirə Ədəbiyyatı silsiləsi ; 1-ci kitab)**

Kitabda verilmiş xatirələrdən uşaqları ilə bağlı xatirəsini oxucuların ifasında təşkil edirik. Moskvadan oğlu Aydına yazdığı xatirəsini təqdim edirik:

- Sənin teleqramını aldım, çox şadam. Ancaq yazırsan ki, mən yaxşıyam. O biri uşaqlardan  və Sonadan bir şey yazmamısan, mən də deyirəm bəlkə onlardan kefsizi var? Kağız yazanda gərək elə yazasan ki, aydın olsun. Mən yaxşıyam, ayın 13-ü Moskvadan yola düşürük. Baqi salam bütün məhəllə uşaqlarına.
- Ayduşka, elə ki, çıxıram bayıra, bir uşaq görürəm, tez baxıram  görüm sənə oxşayırmı? O, saat girirəm yaxındakı dükana , sənin üçün yaxşı-yaman bir şey alım gələndə gətirəcəyəm....




**Ucadan oxu!** Oxucuların fəallığına təsir göstərən, onlarda müəyyən fikir formalaşdıran tədbir formalarından biri də uşaq kitabxanalarında ucadan oxudu. Kitabxanaçı Cəfər Cabbarlının Azərbaycanımızı qarış-qarış tərənnüm edən "Ölkəm" şeirinin ucadan oxusunu keçirir. Bu zaman metodist uşaqlara müəyyən biliklər verir. Suallarını cavablandırır və çox vaxt tədbir oxunmuş şeirin müzakirəsi ilə başa çatır.

Tədbirin sonunda "Ölkəm" şeirinə bəstələnmiş mahnı səsləndirilir.
https://www.youtube.com/watch?v=hCeb1yDsoJA

**Şeir müzakirəsi.** Azərbaycan təhsili və tədrisində bayrağımız və müstəqilliyimiz haqqında bilgilər öz doğru əksini taparsa, gənclərimiz Azərbaycan milli bayraq məfkurəsini daha yaxından mənimsəyər və ona mənən də sahib çıxar. Bunun üçün, bu gün yeni nəslə Hüseynzadələrin, Rəsulzadələrin, Cavadların, Cabbarlıların və başqalarının milli ruhlu ideyaları aşılanması ilə

onlarda milli bayraq sevgisi yaratmaq lazımdır. Kitabxanada C.Cabbarlı yaradıcılığının tanıdılması məqsədilə keçirilən tədbirlərdə məktəblilərlə yubilyarın əsərlərinin müzakirəsi və onlar ətrafında söhbətlərin təşkil edilməsi maraqlı olar. Söhbətlər kütləvi-şifahi işin ən təsirli və geniş yayılmış metodu olub kiçik qrup və ayrı-ayrı şəxslərlə fərdi keçirilə bilər. Söhbətin əsas xüsusiyyəti qarşılıqlı danışıq, məsələnin birgə müzakirəsidir. Söhbətin müvəffəqiyyəti mövzunun aktuallığından, oxucuların həmin mövzuya olan marağından asılıdır. Söhbətə hazırlaşan kitabxanaçı söhbətin və ya müzakirənin planını işləyir. Lazımi materialları seçib öyrənir, əyani materialları toplayır.

**Müzakirə:**

Mövzunun müzakirəsində daha çox oxuculara veriləcək suallar maraqlı olmalıdır. Müzakirəni "Azərbaycan bayrağına" şeirinin oxucunun ifasında dinlənilməsi ilə başlayırıq. Şeir o dövrdə qələmə alınan Azərbaycan bayrağına həsr olunmuş ən mənalı təsvir hesab olunduğundan, şeirin məzmununa uyğun texniki vasitələrdən istifadə edib, üçrəngli bayrağımız fonunda slayd nümayiş edirik.



https://www.youtube.com/watch?v=Os6DHSvdgAk

Əsər təkcə müəllifin vurğunluq hissini deyil, eyni zamanda milli vətənpərvərlərin qürur və sevinc əhval-ruhiyyəsini ifadə edir. Müzakirəyə oxucuları, sosial şəbəkələrdə, kitabxananın elan lövhəsində məlumat yerləşdirməklə cəlb edirik.

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərinə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor.
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə deməkʔ
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yılduz da səkkiz hərli Od Yurdu
Əsarətin gecəsindən fürsət bulmuş quş ki
Səhərlərə uçmuşdur
Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İstiqlal!

Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

Müzakirənin daha da maraqlı olması üçün kitabxanaçı tərəfindən hazırlanmış sual-cavablardan istifadə edirik.

1. Azərbaycan Cümhuriyyətinin dövlət atributu olan bayrağımıza saysız hesabsız şeirlər, nəğmələr həsr olunsa da üç boyalı, ay və səkkiz guşə ulduzlu milli bayrağın simvolika açımını ilk dəfə poeziyaya gətirən hansı şair hesab edilir?
   ☺ Cəfər Cabbarlı

2. Gənc və istedadlı sənətkarımız Cəfər Cabbarlının Azərbaycanın milli bayrağına həsr etdiyi bu ilk şeiri necə adlanır?
   ☺ "Sevdiyim"

3. Cəfər Cabbarlının Azərbaycan bayrağına həsr etdiyi başqa şeiri hansıdır?
   ☺ Azərbaycan bayrağına

4. Şeirdə təsvir edilmiş bayrağımızın rənglərinin mənası nədir?

   ☺ "türkçülük, islamçılıq və müasirlik"

5. 2010-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradılan Dövlət Bayrağı Meydanında dalğalanan eni 35 metr, uzunluğu 70 metr, çəkisi 350 kiloqram olan Azərbaycan bayrağının hündürlüyü neçə metrdir?
   ☺ 162 metr yüksəklikdə

6. “Ginnes” dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da nə üçün Azərbaycan dövlət bayrağını öz syahısına salmışdır?

Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

7. Cabbarlı bayrağımızda təsvir edilən ay ulduz təsvirini necə vermişdir?

   ☺ Kölgəsində ay əyilib bir gözəli qucmada...

Yazıçının “ Bakı müharibəsi “ faciəsində 1918-ci ilin martında Bakıda baş verən qanlı hadisələr, erməni daşnaqlarının azərbaycanlılara qarşı etdiyi zülmlər təsvir olunmuş, başda Nuru Paşa olmaqla qəhrəman xilaskar türk ordusunun şəhəri erməni vəhşilərindən xilas etməsindən bəhs edilir. Həmin faciə 1919-cu il sentyabrın 16-da Azərbaycan Dövlət Teatrında tamaşaya qoyulsa da çox təəssüf ki, bu günə kimi əlyazması tapılmamışdır.
Kitabxanada Azərbaycanın tarixinə dair keçirilən tədbirlərdə Cəfər Cabbarlının *“Bakı müharibəsi” və ya “Ədirnə fəthi”* əsərinin müzakirəsini təşkil edə bilərik. Əsər Prezident İlham Əliyevin latın qrafikası ilə kütləvi nəşrlərin çap edilməsi haqqında sərəncama əsasən 2005-ci ildə çap edilmiş kitabda yer almışdır. Müzakirənin təşkili oxucuları öz tarixini unutmamağa, daha yaxşı öyrənməyə çağırır.

https://drive.google.com/file/d/1z_1YJze3F87HUruvjkHHqQ8Q5y5MnJkn/view

## Cəfər Cabbarlı və Azərbaycan milli kinosu:

Cabbarlı yalnız yazıçı deyil, eyni zamanda rejissor olmuşdur. Məşhur musiqi professoru Dünya şöhrətli bəstəkar Qilyer onun "Şahsənəm" adlı mənzum pyesini nota çevirərək opera da yazmışdır. Onun əsas fəaliyyəti teatrla bağlı olsa da, kinoda da böyük uğurlar qazanmışdır. Bu sənətin daha da gələcəkdə inkişaf edib böyük uğurlar qazanacağına inanan C.Cabbarlı öz istedad və bacarığını da bu iş üçün əsirgəməmişdi. Onun kinostudiyada fəaliyyət göstərməsi elə buna bir sübutdur. "Sevil" filminin çəkilişindən ruhlanan Cabbarlı "Almaz" filminin ssenarisini yazır. Filmə quruluş verməyi də öz öhdəsinə götürür. Almaz roluna İzzət Orucovanı təsdiq edir. Lakin çəkilişə bir neçə gün qalmış C.Cabbarlının ürək ağrıları başlayır. Bir neçə gün sonra yaradıcılığının çiçəkləndiyi bir dövrdə yeni il gecəsi dünyasını dəyişir. Kinodramaturq "Almaz" filmindən başqa daha üç filmin ssenarisini işləmişdir. Bunlardan birincisi "1905-ci ildə", ikincisi "Yaşar" adlanır. Üçüncüsü isə "Ölülər"dir. Onun yazdığı "Sevil" dən qırx il sonra adını daşıyan Cəfər Cabbarlı adına Azərbaycan kinostudiyası yenidən "Sevil" operasını səhnəyə qoymuşdur. "Sevil" Azərbaycan kino tarixində ilk film-opera, sabiq sovet kinematoqrafiya tarixində isə müasir mövzuda yaradılmış ilk kinooperadır.

Əsas üç fərqli istiqamətdə inkişaf etmiş C.Cabbarlının yaradıcılığında birinci istiqamət onun kinomuzun təşəkkül tapmasında təəssübkeşliyi ilə bağlıdır. Cəfər Cabbarlının fəaliyyətinin ikinci istiqaməti onun filmlərə ssenari yazmasıdır. O, Azərbaycanın ilk milli kinodramaturqudur. Qələmə aldığı ilk "Sona" (Hacı Qara) əsərini demək olar ki yenidən işləmişdir. Məhz "Hacı Qara" yox Sona obrazı ilə o qadının cəmiyyətdə rolunu gündəmə gətirmişdir. Ondan sonra çəkilən "Sevil" filmində isə Sevil obrazının ifaçısı İzzət Orucovanın

xatirələrində danışır ki, özü Sevilin çarşabı başından çıxartması səhnəsində şəxsən iştirak edirdi. Bu səhnə hətta onun xoşuna gəlməmişdi bir neçə dəfə oynamışdım. Əllərini bir-birinə vurub deyərdi: "Yox, İzzət olmadı, çarşabı başından atmağın çox süni çıxır. Sən çarşabı başından elə atmalısan ki, bu səhnə tamaşaçıda cəhalətin və mövhumatın qara pərdəsi olan çarşaba nifrət hissi oyatsın".

Sənətkar və vətəndaş Cəfər Cabbarlının kino fəaliyyətindən danışarkən teatrla yanaşı, Azərbaycan kinematoqrafiyasına, kinosuna gətirdiyi əsərlərin ssenariləri, yenilikləri də yada düşür. Əsas işini teatra bağlamasına baxmayaraq dramaturq incəsənətin vacib sahələrindən biri olan kinoya da çox böyük əhəmiyyət vermişdir. Uzun müddət Azərbaycan Dövlət Dram Teatrında ədəbi-hissə müdiri işləyən peşəkar dramaturq o vaxt yenicə inkişaf edən kino sənəti ilə xüsusi maraqlanıb onun inkişafına yeni töhfələr gətirmişdir. Yarandığı dövrlərdə Azərbaycan milli kinosunun yaranması və inkişafı üçün əlindən gələni əsirgəməmişdir. Hələ 1922-ci ildə Respublika hökuməti tərəfindən yaradılan kino fabrikində 1928-ci ildə Mirzə Fətəli Axundovun vəfatının 50 illiyi münasibətilə "Hacı Qara" əsərinin motivləri əsasında onun ssenarisi əsasında "Sona" adlı kino-filmi çəkilmişdir. Bu filmi ilə Azərbaycanın ilk milli kino ssenaristi kimi tanınan C.Cabbarlı Azərbaycan qadınlarını qara çadradan xilas edib siyasi, iqtisadi və ictimai həyata çıxartmaq üçün kinematoqraf kimi böyük imkanlarından istifadə etmək fikrində idi. Lakin o, bu arzusunu "Sevil" filmi ilə həyata keçirə bilmişdir. "Sevil" filmi 1929-cu ildə Cəfər Cabbarlının ssenarisi üzrə çəkilmişdir. Bu film Azərbaycan kinematoqrafçılarının qadın hüquqsuzluğuna, qadın əsarətinə ilk etiraz səsi idi. Kinofilmdə Sevil rolunu oynamaq üçün münasib bir azərbaycanlı qızı axtarmaq işində yenədə C.Cabbarlı özü yaxından iştirak etmişdi. O, öz qəhrəmanının ekranda surətini

canlandıracaq aktrisanı tapmaq üçün Bakının küçələrinə düşüb qapı-qapı gəzərək evlərdə, idarələrdə, ali məktəblərdə azərbaycanlı qız axtarmışdır. Onun istəyi o idi ki, filmdə Sevili mütləq azəri qızı oynasın. Bu arzusuna da o özünə məxsus bir inadkarlıqla nail olmuşdu. Hətta başına qəribə macəralar da gəlmişdi. Bu axtarış zamanı aldığı təəssürat əsasında "Gülər" hekayəsini yazmışdı. Sevil rolunu Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun tələbəsi İzzət Orucova oynamışdır.

Yarandığı gündən kinofabrikində çəkilən "Bismillah" filmindən sonra ilk iki film "Hacı qara" və "Sevil" sənətkarlıq baxımından çox diqqəti cəlb etmişdir. M.F.Axundovun eyni adlı əsəri əsasında yazılmış Hacı Qara filminin ssenarisində Azərbaycan bəylərinin, tacirlərinin, kəndlilərinin, həyatı əks etdirilmişdir. Pyesi kino dilinə çevirən dramaturq müəllifin digər əsərlərindən də istifadə etmişdir, xalqımızın məişət və mənəviyyatını geniş təsvir etməyə çalışmış, əsas obraz kimi Hacı Qaranı deyil, Sonanı vermişdir. Bununlada qadının cəmiyyətdə yeri probleminə toxunmuşdur. Qadının da bir insan kimi azad yaşayıb, öz fikrini sərbəst ifadə etmək hüququna malik olduğu ideyasını ön plana çəkmişdir.

Kinoda müvəffəqiyyət qazanan "Sevil" filmindən hədsiz dərəcədə sevinən C.Cabbarlı "Almaz" və "1905-ci ildə" pyesləri üzrə kinossenarilərini yazdı və "Sevil"dən sonra dərhal "Almaz" filminin çəkilişlərinə başladı. Sona Cabbarlının xatirələrinə görə "Burada da qəhrəman rolunu, yəni Almazı İzzət xanım oynayırdı. Amma Cəfər bu quruluşu başa çatdıra bilmədi. Amansız ölüm onu bu işindən də vaxtsız ayırdı. Cəfərin sənət dostları "Almaz" filmini Cəfərsiz çəkib qurtardılar və 1935-ci ilin axırında, onun ölümünün birinci ildönümündə, işi müvəffəqiyyətlə qurtardıqları haqqında məzarı üstündə raport verdilər".

Cəfərin bədxahları iddia edirdilər ki, nə qədər Cəfər teatrdadır, onlar oraya pyes verməyəcəklər. Cəfər Cabbarlının bununla əlaqədar Sovet Yazıçıları İttifaqının təşkilat komitəsinə yazdığı məktubdan bir parçaya diqqət yetirək: “...Əgər bu doğru isə, mən dərhal teatrı tərk etməyə hazıram, təki onlar yazsınlar. Mən başqa müəssisələrə: 14 ildən bəri kimsənin heç bir şey yazmadığı və mənim bu il iki libretto yazmalı olduğum operaya; heç vaxt işləmədiyim və buna baxmayaraq repertuarını mənim "1905-ci ildə", "Almaz", "Yaşar", "Sevil" pyeslərim təşkil edən rus işçi teatrına; 14 ildən bəri kimsənin heç nə etmədiyi, mən isə özümü orada borclu saydığım Azərkinoya; habelə pyeslərimin əksəriyyəti oynanılan özbək, türkmən, tacik, tatar teatrlarında, fəhlə klublarında işlərəm, nəhayət, tamamilə yazmaya bilərəm, təki o yoldaşlar yazsınlar". Beləliklə də, Cəfər tamamilə teatrdan çıxıb Bakı kino fabrikində daimi işə keçdi. Bu işdə kino Cabbarlını getdikcə daha çox cəlb edirdi. Azərbaycanda sənətin bu sahəsində lazımi kadrların olmaması vəziyyəti çox ağırlaşdırmışdı. Cabbarlı kino işlərini canlandırmaq məqsədilə əlindən gələni əsirgəmir, orada həm ssenarist, həm də rejissor kimi çalışırdı.

O, azərbaycanlılardan operator, rəssam, rejissor və kino-aktrisa yetişdirilməsi barədə məsələ qaldırmış, kinoda işlədiyi zaman isə bu sahədə ciddi fəaliyyət göstərmişdi. Teatrda olduğu kimi kino işinə də çox ciddiliklə yanaşan yazıçı bu sahədə milli kadrların hazırlanmasına böyük əhəmiyyət verirdi. Lakin elə buradaca, fabrikdə türk qadını Orucova (Azərkinonun türk olmayan 125 işçisinin içərisində həmin 8-9 türkdən biri, gözəl aktrisa) makinaçı işləyir. Kişi rollarında aktyorlar nə üçün Moskvadan, Leninqraddan, Xarkovdan dəvət olunur sualına isə heç kəs aydın cavab verə bilmir və direktor rejissorun, rejissor operatorun, operator rejissorun üstünə yıxır və s.i.a. Azərkinonun yeganə xilas yolu başlıca olaraq xidmət etdikləri

Azərbaycanın zəhmətkeş kütlələrinə inamsızlığından imtina etməsi və bu əsas kütlənin yaradıcılıq iradəsini özünün bütün işi üçün əsas seçməsindədir. Bizim kinofabrikanın qapılarını açmaq və oraya bu canlı yaradıcı kütləni buraxmaq lazımdır. Başqa kino təşkilatları belə işləyir və bizimki də belə işləməlidir. Bizim kinomuzun rəhbərləri bunu nə qədər tez dərk etsə, o qədər yaxşı olar. Biz isə indi xəbərdarlıq edirik, bizim kino yanlış yolu ilə məhvə doğru gedir".

Kinoda işləməyə başladıqdan sonra Cabbarlı istirahəti tamamilə yaddan çıxarmışdı. Sona xanım Cabbarlıya yazdığı 29 avqust 1933-cü il tarixli məktubunda Cəfər Cabbarlı öz gərgin iş vəziyyətini belə təsvir edirdi:
"...Sonra, Sonası, öz işim belədir: Moskvada qət olunub ki, kinoda" 1905-ci il"in pastanovkasını ancaq mən verməliyəm. Özgə adamın verməsinə razı olmayıblar. Moskvada həll olunub ki, hansı kinolar gedə bilər və hansını hansı rejissor qoymalıdır. "1905-ci ildə" filminin rejissorundan söhbət gedəndə demişlər ki, Braginski-mraginski tanımırıq, Cəfər özü qoymalıdır filmi. Özü də bu il olmalıdır. Və teatrdan kinoya keçməlidir. Mən dedim: teatrdan getmərəm. Sonra dedilər ki, teatrda da, kinoda da işlə. İndi gərək rejissor ssenarisinə başlayaq. Ayın 1-dən kinoda qulluqdayam. Sonra, "Səfa"nın ancaq bircə 4-cü pərdəsi qalıb. 1-ci, 2-ci, 3-cü pərdələrini qurtarmışam tamam-kamal. Bu yandan da Qliyer Narkomprosda deyir: gərək bir həftəyə "Şahsənəm" i qurtarasan, operada oynayaq. Deyirəm vaxtım yoxdur. Deyirlər, özgə adam eyləyə bilməz. Bu yandan da Şillerin " Qaçaqlar" ı, o yandan da "Əfqanıstan" ...Xülasə, işlərim çox dolaşıqdır, haraya gedib çıxsa, sənə yazaram... Sonra, Türk teatrında "1905-ci ildə"ni quruluşda verməliyəm. Rus teatrında da "1905-ci ildə" gedir. Mayorov deyir, gərək ikili işləyək, tək qoya bilmərəm. Operada da " Səfa"nın pastanovkasını gərək mən verəm. Bizim teatrda da "Otello"nu

təzələmək boynuma qalmışdır. Onlardan bir cür ilə boyun qaçırmışam. Hamısı da deyir bir vaxtda. Xülasə, aləm çaxnaşıb bir-birinə, heç bilmirəm nə edəcəyəm. Hə, "Od gəlini"ni də gərək Mayorov ilə mən işləyəm. Budur, təxminən mənim işlərim. İndi gələk sənin işlərinə...".

Sona xanım Cabbarlının xatirələrindən məlum olur ki, yazıçı ömrünün son illərini kinostudiyadakı fəaliyyətinə sərf etmiş, həyatı qədər sevdiyi teatrdan özü istəmədən uzaqlaşmağa məcbur olmuşdu.

Tale nəinki onun ömrünə çox tez son qoymuşdur. Hətta bu vaxtsız gedişin özünü dramatikləşdirdi. 1934-cü ildən 1935-ci ilə keçən yeni il gecəsi vəfat etdi. O vaxtın adamları söyləmişlər ki, bu xəbər bütün Azərbaycanı sarsıtmış, xalqımız yasa batmışdır. Onun dəfni zamanı bütün Bakı ağlayırdı. Müqayisə olunan Müşfiq və Cabbarlı yaradıcılığında Müşfiqin Cabbarlının ölümü ilə yazdığı bir şeiridə var:

Göylər bir-birinə dəyib ağlasın,
Buludlar başını əyib ağlasın,
Dan yeri ağlasın, şəfəq sökülsün,
Ulduzlar göz yaşı kimi tökülsün,
Günəş göy üzündə yansın, yıxılsın,
Qəmli buludlara iltica qılsın.
Qoy göylər görünsün bir çəmən kimi.
Ağarsın dan yeri yasəmən kimi!..
Öldü! guruldasın, çaxsın buludlar,
Qəbrinə çiçəklər taxsın buludlar!..

Cabbarlının kino fəaliyyəti. “Qız qalası” mənzuməsi kimi, əsərlərindən bir qismi rusca ilə bərabər, Qafqaz dillərinə də tərcümə edilmişdir. Dramlarından başqa C.Cabbarlının şeirləri və hekayələri də vardı. Cabbarlının dramaturqluğu Azərbaycan dramaturgiyasında mühüm bir mərhələdir.

**Məhəmməd Əmin Rəsulzadə**,

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biridə görüşlərin təşkilidir. Görüşdə iştirakçılar mövzu ətrafında daha geniş məlumatlarla tanış olur, əyani olaraq videoçarxlar, slaydlar vasitəsilə məlumatlanırlar. Buda tədbiri daha yaddaqalan edir. Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr edilmiş görüşə kino xadimlərini, ədəbiyyat nümayəndələrimni, müəllimləri dəvət edə bilərik. Görüşün təşkilində məqsəd oxucuları böyük dramaturq, yazıçının yaradıcılığında kino sənətinin nə dərəcədə rolu olduğunu çatdırmaqdır. 1899-cu il martın 20-də Xızı kəndində yoxsul kəndli ailəsində anadan olan drammaturq, yazıçı Cəfər Cabbarlının yaradıcılığına nəzər salanda onu kino xadimi olaraqda geniş xidmətləri olduğunu görə bilərik. Dini məktəbdə oxusada ara-sıra Xızıya gedən Cəfər orada aşıqsayağı şeirlər yazan bibisi Zərnişanla, digər qohumları ilə görüşür. Elə ədəbiyyata da marağı ordan yaranır, ədəbiyyatada şeirlə gəlir. İlk mətbu şeiri 1911-ci ildə “Həqiqəti-əfkar” qəzetində dərc olunur, 1915-ci il aprel ayının 3-də “Məktəb” jurnalının 6-cı nömrəsində onun “Bahar” adlı şeiri nəşr edilir. Onun yaradıcılığa başlamasında “Məktəb” jurnalı əsas rol oynayır. Sonralar Cəfər Cabbarlı dramaturgiya sahəsində daha məhsuldar çalışsada, dramaturq və teatr xadimi kimi daha çox tanınır. Xalqın tərəqqisini, mədəniyyətin, teatrın inkişafında görən sənətkar bir-birinin ardınca “Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş”, “Solğun çiçəklər”, “Nəsrəddin şah” “Trablis

müharibəsi”, “Ulduz”, “Ədirnə fəthi”, “Aydın”, “Oqtay Eloğlu” və s. adlı pyeslərini yazır. 1928-ci ildə Bakı kino fabrikində Mirzə Fətəli Axundovun vəfatının 50 illiyi münasibətilə «Hacı Qara» əsərinin motivləri əsasında çəkilən filmin ssenarisini yazan Cabbarlı “Hacı Qara” bədii filmi ilə Azərbaycanın ilk milli kino ssenaristi kimi tanındı. 1929-cu ildə isə onun ssenarisi üzrə “Sevil” filmi çəkilib. Bu film Azərbaycan kinematoqrafçılarının qadın hüquqsuzluğuna, qadın əsarətinə ilk etiraz səsi idi. Göründüyü kimi, Cəfər Cabbarlı milli kino sənətimizin inkişafında böyük xidmətləri olan şəxsiyyətlərdən biridir.O, kinematoqrafiya tariximizin “qızıl fondu”na “Sevil”, “Almaz” kimi gözəl filmlər bəxş edib

C.Cabbarlının filmlərin ssenarisində qaldırdığı problemlər müasir dövrümüzdə belə yaşanır “Cəfər Cabbarlını narahat edən məsələlər-cəmiyyətdə azyaşlı qızların ərə verilməsi kimi hadisələrə indi də rast gəlinir.

Sonda Cəfər Cabbarlı haqqında çəkilmiş “Zəhmətdən doğan işıq” adlı sənədli film nümayiş edilir.

https://www.youtube.com/watch?v=AZ-NtwieOqk

**Rəsm müsabiqəsi.** Dövlət, atributlarımıza milli bayrağımıza sevgi, hörmət aşılamaq üçün kitabxanada vətənpərvərliklə bağlı tədbirlər çox olur. *“Azərbaycan bayrağı Cəfər Cabbarlı poeziyasında”* adlı rəsm müsabiqəsi təşkili bu mövzu ilə bağlı tədbirlərin keçirilməsində maraqlı olar. Bu həmdə Cəfər Cabbarlı yaradıcılığının oxuculara tanıdılmasında kömək edər. Müsabiqə ədibin bayrağımıza yazdığı *“Azərbaycan bayrağına”* və *“Sevdigim”* şeirləri əsasında hazırlanır. Şeir əsasında oxucular bayrağı rəsmlərdə təsvir edirlər. Müsabiqəyə iştirakçı cəlb etmək üçün müxtəlif təhsil müəssisələrində, məktəblərdə və ya virtual olaraq internet axtarış sistemində elanlar yerləşdirilir. Kitabxanada əl işlərinə baxış üçün müəyyən gün təyin edilir.

Sonda münsiflər heyəti tərəfindən seçilmiş müsabiqənin qalibi təyin olunur və mükafatlandırılır.

Can alıcı bir görkəmlə dağ başında durduqca,
Oxşadıqca bahar yeli açıq – dağınıq telləri,
Nazlı yelin omuzunda saçlarına vurduqca
Birər-birər oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altundağdan doğma hisslər bəkləyir.
Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdigim.
Rəmuz ilə dörd bir yana işıq saçmaq istəyir,
Ara-sıra tərpəniyor yüksək uçmaq istəyir,
Qollar ilə türk ellərin bütün qucmaq istiyor.
Yaşıl gözlü, mavi gözlü, al yanaqlı sevdigim.

**Xatirələr.** Cəfər Cabbarlı haqqında çox deyilib, onun əsərlərindən dəfələrlə dissertasiyalar müdafiə olunub, kitablar yazılıb. Lakin C.Cabbarlı haqqında özündən yaşda böyüklərdən eşitdiklərini güclü hafizəsində qoruyub saxlayan yaxın qohumu Əjdər Cəfər Cabbarlı haqqında atasından, əmilərindən və ədibin oğlu Aydından eşitdiyi xatirələrində deyir: “Təbii ki, mən Cəfər əmini görməmişəm və şəxsən onunla bağlı xatirələrim yoxdur. Amma Cəfər əmi haqqında özümdən böyüklərdən çoxlu xatirələr bilirəm. Mən Cəfər Cabbarlının qardaşının böyük nəvəsiyəm. Onun Əjdər adlı qardaşı olub və onun adı mənə verilib. Cəfər Cabbarlı hər zaman hamının sevimlisi olub. Özünəməxsus qabiliyyəti, dünyagörüşü, baxışları olan bu insan hər zaman diqqət mərkəzində olub. Ulu öndərimiz Heydər Əliyev də Cəfər Cabbarlını çox sevirdi, onun yaradıcılığını yüksək qiymətləndirirdi. Dəmir yolu vağzalın qarşısında qoyulan qranit daşı Heydər Əliyevin təşəbbüsü ilə, daha doğrusu onun böyük bir zəhmətilə Ukraynadan məxsusi gətilirilib. Bunları mənə Cəfər əmimin yubileyində Heydər Əliyevin özü söyləyib. Yubileyə Naxçıvandan gələn rəhbər adəti üzrə yubiley

tədbirindən sonra səhnə arxasına keçib Cəfər əminin qohumları ilə bir xeyli söhbət etdi. Bizimlə xatirə şəkli çəkdirdi. Söhbət əsnasında mən Heydər müəllimə dedim ki, "Biz çox xoşbəxt adamıq ki, sizinlə şəkil çəkdiririk". O, isə əvəzində "sən düz danışmırsan, xoşbəxt adam mənəm ki, Cəfər Cabbarlı kimi bir şəxsiyyətin qohumları ilə şəkil çəkdirirəm. Mən o yazıçını, dramaturqu ən çox sevən adamlardan biriyəm". Yeri gəlmişkən qeyd edim ki, bu tarixi hadisədən çox illər keçsə də Cəfər əmimin oğlu Aydın, qızı Gülarə, digər qohumlarımız bu günün özündə də bu hadisəni sevə-sevə xatırlayırlar.

Bütün hakimiyyəti dövründə C. Cabbarlının Ev Muzeyi həmişə Heydər Əliyevin diqqət mərkəzində olub. O, dəfələrlə Cəfər Cabbarlının ev muzeyini təmir etdirdi, sonra Xızıda dörd yol ayrıcında Cəfər əmim üçün böyük bir heykəl qoydurdu, yaxşı bir bağ saldırdı. Bu qayğı bu gün də o böyük prezidentin layiqli davamçısı olan İlham Əliyev tərəfindən davam etdirilir. C.Cabbarlı haqqında mənə Respublikanın çox hörmətli aktyoru mərhum Məhəmməd Əlili də çox söhbətlər edirdi. O, Cəfər əminin ən yaxın dostlarından biri idi, Sona xanım rəhmətə gedəndə mən bu yaşlı insanın necə əzab çəkdiyinin şəxsən şahidi olmuşam Məhəmməd Əlili və teatrda çalışan bir çoxları Cəfər əmimə deyirlər ki,”Cəfər sən bu gün öz lojanda oturma, qoçular sözü bir yerə qoyub səni vurarlar”. “Sevil”də çadranın atılması xüsusilə söz-söhbətə səbəb olduğundan o dövr üçün Cəfər Cabbarlının açıq-aydın gəzməsi həqiqətən də böyük cəsarət idi. Cəfər Cabbarlısa cavabında “əsər mənimdi, mən burda olmalıyam, əgər ölməliyəmsə ona da hazıram”- deyir. Oturur öz lojasında, eşitdiklərimə görə çox güclü qarşılanır bu tamaşa, hamı ayaq üstə Cəfər əmini alqışlayır. O illərdə Azərbaycan qadının örpək atmasını qabaqcıl adamlar çox yaxşı qarşılayırlar. Bir də eşitdiyimə görə onun Moskvada Ümumittifaq Yazıçılar konfransında böyük çıxışı olub. Çıxışında müstəmləkəçiliklə

bağlı məqamlara toxunduğu üçün yuxarı dairələrin xoşuna gəlməyib. Sona xanım danışırdı ki, Moskvadan qayıdandan bir ay sonra Cəfər vəfat etdi.

**Cəfər Cabbarlının tərcüməçilik fəaliyyəti.** Cəfər Cabbarlı ilk dəfə tərcüməçilik fəaliyyətinə Cümhuriyyət dövründə - 1918-ci ilin oktyabrın 3-dən Bakıda nəşr olunan "Azərbaycan" qəzeti redaksiyasında başlamışdır. O Avropa və rus yazıçılarından Vilyam Şekspirin "Hamlet", "Otello", Fridrix Şillerin "Qaçaqlar", Karon de Bomarşenin "Fiqaronun toyu", Lev Tolstoyun "Cocuqluq" və b. irihəcmli əsərlərini Azərbaycan dilinə çevirmişdir. Onun rus dilindən ana dilimizə çevirdiyi ilk ən irihəcmli əsəri dünya drammaturgiyasının möhtəşəm abidəsi sayılan Villiam Şekspirin "Hamlet" faciəsi olmuşdur. Hamlet faciəsini Cəfər Cabbarlıya ilk dəfə Dövlət Türk Teatrosu sifariş versədə əsərin nəşr variantı səhnə primyerasından əvvəl olmuşdur. 1925-ci ilin avqustunda Dövlət Türk Teatrosuna təhvil verilən tamaşa 1926-cı il dekabrın 23-də hazır olur. Geniş oxucu marağına səbəb olduğundan əsər 1926-cı ilin ortalarında Bakıda ilk dəfə çap olunur. Bundan əlavə Şekspirin irsindən növbəti "Otello" faciəsini sənətkar dilimizə tərcümə etmişdir. Otello Hamletdən əvvəl Haşım bəy Vəzirovun tərcüməsi ilə Azərbaycan oxucusuna tanış idi. Cəfər Cabbarlı 1921-ci ilin noyabrında Türk Teatrosunda başqa bir tərcüməçi Həsən Səbrinin tərcüməsində "Otelloya" baxdıqdan sonra məqalələrinin birində bu tamaşanın çox zəif tərcümə olunduğunu yazırdı. Dilinin çox zəif olması, sözlərin qırıq-qırıq tərcüməsi dilimizə xələl gətirirdi. Yenidən Türk Teatrosunun sifarişi ilə dünya şöhrətli əsərin tərcüməsi Cəfər Cabbarlıya həvalə edilir. Cəfər Cabbarlı istedadlı şair olsada nəzm ilə yazılmış Otellonu şeirlə tərcümə etməyə rəğmən nəsrlə tərcümə etmişdir. Burada özünün uzunmüddətli təcrübəsindən istifadə edərək fikrin səhnə dilində aydın, yığcam ifadəsinə çalışmışdır.

Qərbi Avropa ədəbiyyatından olan alman şairi, dramaturqu Fridrix Şillerdə Azərbaycan oxucusuna XIX əsrin ikinci yarısında yaxşı tanış idi. Təsadüfi deyildi ki, Cəfər Cabbarlı "Oqtay Eloğlu" pyesini yazarkən F. Şillerin "Qaçaqlar" faciəsindən bəhrələnmişdir. Əslində Oqtay Eloğlunun altıncı pərdəsində "Qaçaqlar" əsərindən səmərəli istifadə etmişdir. Sadəcə Şillerin Karl Mooru həyat həqiqətini bədii həqiqətə, Cəfər Cabbarlının Oqtay Eloğlusu isə bədii həqiqəti həyat həqiqətinə çevirən insandır.

Kitabxanada həmin pərdənin ssenarisini oxucularla birgə səhnələşdirmək olar.

Kitabxanada həmin əsərlər ətrafında söhbət keçirə bilərik. Bu əsərləri oxuculara təqdim edə bilərik ki, məlumatlı olsunlar.

**Qrimm:** Sən öz sadiq qullarının üzünə baxmaq istəmirsən?

**Oqtay:** (Karl rolunda) Bu dəfədə mənə sadiq olmuşsunuzsa, vay sizin halınıza.

**Qrimm:** Sənin sadiq qulun Şveytserlə son vidan. O bir daha gəlməyəcəkdir.

**Oqtay:** Necə? Onu tapmadınızmı?

**Şvarts:** Ölüsünü tapdıq.

**Oqtay:** Şükür sənə İlahi! Bir bəladan qurtardımsa, işim düzəldi.

**Qaçaqlar**: (Firəngizi Amaliyanı gətirərək) Ataman, ataman sizə çox gözəl bir töhfə!

**Firəngiz:** (Dayısının qucağına atılaraq) Ah, dayı, dayı! Moor.

**Moor:** Amaliya! Amaliya! Mənim qızım!(Firəngiz qalxıb Oqtaya tərəf gedir).

**Firəngiz:** Karl! Karl!

**Oqtay:** (Onu görüncə diqqətlə baxır) O, Firəngiz sənsən! Yuxumu görürəm!

**Firəngiz:** (şaşır özünü itirir.) Əziz kralım.
**Oqtay:** Of! Uzaq məndən, aman uzaq. Qoy bütün dünya məhv olsun.
**Suflyor:** Oğlun qaçaqların başçısıdır. Oqtay!
**Moor:** Sözünü de də! Öləcəyəm axı!
**Moor:** Sözünü de də! Mən daha öldüm (Ölür.)
**Firəngiz:** Sən qatilsən, şeytansan, mələksən.

**Cəfər Cabbarlı yaradıcılığının cümhuriyyət dövrü**. Hamımızın Azərbaycan sovet dramaturgiyasının banisi kimi tanıdığımız, yazıçı, şair, ədəbiyyatşünas, rejissor, ssenarist və görkəmli teatr xadimi tanıdığımız Cəfər Cabbarlı özünün 35 illik qısa lakin mənalı həyatında həm də jurnalist və milliliyin təbliğatçısı olan dövlət adamı olmuşdur. Çox az adam bilir ki, Cabbarlı milli hökumət dövründə parlament iclaslarının stinoqrafı olmuşdur. Hələ 1915-ci ildə M. Ə. Rəsulzadənin təsisçiliyi ilə yaradılan M.B.Məmmədzadə, S.Hüseyn, Ə.Cavad və başqa bu kimi türkçü əqidəli vətənpərvər ziyalıları ətrafına toplayan "Açıq söz" qəzetinin ən fəal nümayəndələrindən biri olmuş, 1916-1917-ci illərdə Türkiyənin Avropa dövlətlərinin cəngində sıxıldığı bir zamanda, Osmanlı imperatorluğunun dağılması ərəfəsində milli hərəkatın geniş vüsət aldığı bir zamanda baş verən hadisələri böyük can yanğısı ilə izləmiş, o dövrdə qələmə aldığı üç pyesdən ikisini - "*Trablis* müharibəsi*"(Ulduz) və "Ədirnə fəthi"* əsərlərini bu mövzuya həsr etmişdir. Bu əsərlərində Xalqın öz ərazilərini qorumaq uğrunda mübarizə əzmini uğurla təsvir etməyə nail olmuşdur.
Əsərdə alovlu nitqi ilə seçilən vətənpərvər hərbçi, istedadlı sərkərdə və alovlu natiq Ənvər obrazı yaradılmışdır. Bu obraz 1918-ci ildə Bakının erməni-daşnak və bolşevik işğalından azad olunmasında müstəsna xidməti olan Qafqaz-İslam ordusunun komandanı Nuru paşanın qardaşı Ənvər paşanın prototipidir.

Əsərdə onun əsgərlərə müraciətlə dediyi sözlər bu gündə orduda ruh yüksəkliyi yaratmağa qadirdir.

Kitabxanada "Cəfər Cabbarlı yaradıcılığı və Cümhuriyyət" mövzusu adlı *konfrans* keçirə bilərik. Konfransı aparıcı yazıçının "Ədirnə fəthi" əsərində seçdiyi bir parça ilə başlaya bilər.

**Kitabxanaçı:** Ey qəhrəman türklərin igid balaları! Siz şanlı türk övladları olduğunuzu heç hərbə girmədən bu qədər böyük məsafəni 3 günə piyada gələrkən sübut etdiniz! Qardaşlar, biz Ədirnəyə kimsəni əzməyə gəlmədik. Biz kimsəyə hücum etmək, kimsəni tapdalamaq istəmədik və kəndimizində tapdalanmasına yol vermərik. Bunu görməkdənsə, ölümümüzü görmək istərik. Ey Şərq günəşinin hərarətli qoynunda bəslənən azad Asiyanın istiqanlı, igid balaları! Qarışqalar kimi ayaq altında tapdanmağa həyatmı deyirik? Hayır, türk olduğunu anlayan heç kəs bunu qəbul edə bilməz. Yerin üstündə yatmaqdansa, altında yatmaq daha gözəl deyilmi?

**Sual cavab:**

**1.** Cəfər Cabbarlının Ədirnə fəthi əsərində kimin prototipi yaradılmışdır?

a)Nuru paşa

*b)Ənvər paşa*

c)Tələt paşa

**2.** Ənvər Paşa kim idi?

a) Qafqaz-İslam ordusunun komandanı

*b)Bakının erməni-bolşevik işğalından azad olunmasında müstəsna xidməti olan Nuru paşanın qardaşı*

*Oxucular səhnədə görünür:*

**I aparıcı:** Budur Cabbarlı – gənc və ehtiraslı şair-vətəndaş üzünü bütün Şərqə tutub deyir:

Ey Şərq, sənin üstündə cahan çarpışıyorkən
Aləm səni bölməklə səadət bölüşüyorkən,
Övladın əsarətdə, yazıq, can çəkişiyorkən,
Hala da sükut etmədəsən, ey evi bərbad!
Kimdən, əcaba, ummadasan dərdinə imdad?

**II aparıcı:** Bəs nə etməli? Bu ətalətin sonuna necə çıxmalı?
Döndər günəşin atəşə, saç Qərbə, Şimalə!
Topla nə gücün varsa, giriş qəti cədalə!
Ya haqqını al, ya əbədi öl laməhalə
Qoy gülləri ya qan sulasın, yaxud ədalət,
Qoy ya bəşəriyyət yaşasın, yaxud ədalət!

**I aparıcı:** Lirik Cabbarlı isə budur.
Mən bir solmaz yarpağam ki, çiçəkləri bəzərim,
Mən bir susmaz duyğuyam ki,ürəkləri gəzərim,
Mən səninçin ömrüm boyu cəfalara dözərim,
Sənsiz güllər açılmasın, axar çaylar dayansın!
Oxu bülbül, bəlkə yarım oyansın!..

**II aparıcı:** Buda satirik Cabbarlıdır. O öz satiralarında nəinki ayrı-ayrı tiplərə, hətta əsrin əvvəlində bütün millətə xitab edib onlara gülmək səlahiyyəti verir:

Millət əfradı unutdu hamı həsbü nəsəbi;
Elm təhsilinə sərf eylədi həm ruzu şəbi;
Mən bilən ki, ona lənət oxuyur cəddü əbi,
Baxmadı hərçi deyib dad elədi Molla Cəbi.
Rukni-dinin biridə rəngi-hənadır, demədim?
Ay, baba, işlərimiz xeyli fənadır demədim?

**I aparıcı:** XIX əsrin son ilində dünyaya göz açan və 1934-cü ilin son ayının son günündə dünyasını dəyişən yazıçı, dramaturq, şair Cəfər Cabbarlı özündən sonra çox qiymətli bir irs qoymuşdur. Kiçik yaşlarından yazmağa başladığı şeirlər, hekayələr, dram əsərləri onu qısa zamanda tanınmış bir ədəbi simaya çevirmişdi. Şair, nasir, teatrşünas, kinoşünas, tərcüməçi,

kinossenarist, jurnalist, aktyor, rejissor kimi bir çox sahələrin daşıyıcısı olan C.Cabbarlının Azərbaycan kinosunun, teatrının inkişafında da müstəsna xidmətləri olmuşdur. Hərtərəfli düşünmə areasına malik və zəngin mütaliə görmüş ədibin sonrakı illərdə də, elə bu günün özündə də əsərləri sevilə-sevilə oxunur və oxunacaq. Təkcə "Ana" şeirinin adını çəkməklə ədibin nə qədər istedadlı və poetik usta olduğunu müəyyən edə bilərik. "Ana" şeiri ilə ədib Azərbaycan anasının bütün dövrlər üçün ölməz obrazını yaratmışdır.

**II aparıcı:** Cəfər Cabbarlının anadan olmasının 125 illik yubileyinin keçirilməsi münasibətilə bu il məktəblərdə, ali təhsil ocaqlarında, mədəniyyət mərkəzlərində, kitabxanalarda və F.Köçərli adına Uşaq Kitabxanasında böyük sənətkara həsr edilmiş yubiley tədbirləri təşkil olunacaq. Bu rəngarəng tədbirlərin hamısında bir şeir parçası təkrar-təkrar səsləndiriləcək... Həmin poetik parça dünyanın ən müqəddəs varlığı olan anaya məhəbbət simfoniyası sayıla bilən bir şeirdir. “Ana” adlanan bu şeir əvəzsiz sənət əsəridir.

Cəfər Cabbarlı. “Ana”

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.
Ricavü xəvfə məkan verməzəm gər alimlər
Min il də vəz edələr dəhşəti-qiyamətdən.

Pələnglər tuta dövrüm, çəkinmərəm haşa,
Və ya ki, vəd edələr dövləti-cahanı mənə
Ki, bir kəsə baş əyib əczimi bəyan eləyim,
Əyilmərəm nə ki yer, versələr səmanı genə.

Yanımda gər dura cəllad əlində şəmşiri,
Ölüm gücilə mənə hökm edə olum təslim,
Əyilmərəm yenə haşa! Ölüm nədir ki, onun
Gücilə xalqa həqiranə eyləyim təzim?

Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Əs, ey külək, bağır, ey bəhri-biaman, ləpələn!
Atıl cahana sən, ey ildırım, alış, parla!
Gurulda, taqi-səmavi, gurulda, çatla, dağıl!
Sən, ey günəş, yağışın yağdır, ey bulud, ağla!

Bunlar mənə əsər eylərmi ? Mütləqa yox! Yox!- Yox!!!
Fəqət Ana! O müqəddəs adın qabağında-
O pak bağrına bassın məni, desin layla,
Təbəssüm oynadaraq titrəyən dodağında.

Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,
Uçar səmalara o, aləmi-xəyalətdə.
Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
-Ana… Ana… Sənə mən rahibəm itaətdə!..

Aman… Aman!... Bu müqəddəs vücudu mümkünmü
Ki, bir taqım canavar zülmnən şikar eləsin?!
Yıxıb da xaki-rəzalətdə, tapdayıb əzərək,
Ayaqlar altına torpaq kibi nisar eləsin ?!

Zəlilü-xar edərək məhbəsi-əsarətdə,
O şanlı qollarına zülminən vurar zəncir.
Niyə? Neçin? Hanı vicdan? Hanı ədalət bəs?
Neçin də parlayıb etməz cahanı bir tənvir?

Aləmi, ədl-ədalət üzüldü dünyadən,
Neçin nəsibim edibsən bu zülm- dövranı.
Ey asiman, dağıl, ey zöhrələr axın, tökülün,
Ki, aləmi-bəşəriyyət unutdu vicdanı.



**Ekskursiya.** Kitabxanada kompleks informasiya üçün təşkil edilən tədbirlərdən biridə ekskursiyalardır. Cəfər Cabbarlı haqqında tədbirlərdə daha dolğun məlumat çatdırmaq üçün onun ev muzeyinə və ya Bakının mərkəzi küçələrindən birində yerləşən "Azad qadın" heykəli ətrafında ekskursiya keçirə bilərik. Ekskursiya zamanı heykəlin tarixi, Cabbarlı yaradıcılığında nə kimi məna daşıdığını, hansı əsərdən götürülmüş qadın obrazı olduğu haqqında danışırıq. Bakının mərkəzi küçələrinin birində Azərbaycan Akademik Milli Dram teatrının yaxınlığında yerləşən hündür postamentdə azərbaycanlı qadının obrazını əks etdirən heykəl ucaldılmışdır. Milli geyimli bu gənc qadının qara çadranı çiynindən atması təsvir olunur. Heykəl azadlığa çıxmış

Azərbaycan qadını adlanır. Lakin şəhər əhli onun adını “Sevil” qoymuşdur. Bu teatr səhnəsində aktrisa Mərziyyə Davudovanın oynadığı Sevildir. Bu adı da ilk dəfə Cəfər Cabbarlı öz pyesində kəşf etmişdir. İlk dəfə Sevil obrazını İzzət Orucova oynamışdır.

**Ədəbi-bədii gecə.**

Cəfər Cabbarlının anadan olmasının 125 illik yubileyi münasibətilə kitabxanada ***“Bahar oğlu”*** adlı ədəbi-bədii gecənin təşkili böyük sənətkara, yazıçıya göstərilən bir ehtiramdır. Bu tədbirdə elm, mədəniyyət, incəsənət xadimləri yazıçılar dəvət edilir. Tədbirə Cəfər Cabbarlının ev muzeyinin əməkdaşları, Cəfər Cabbarlı adına Gənclər kitabxanasından ziyalılar dəvət edə bilərik. İlk olaraq Cəfər Cabbarlının yaradıcılığından vidioçarx nümayiş etdirilir.

**Aparıcı:** Cəfər Cabbarlı ədəbiyyata “Bahar” şeiri ilə gəlib. Ömrünün, taleyinin yalnız bahar çağını yaşayıb, ictimai düşüncəmizə yalnız bahar ovqatı, bahar ab-havası gətirib, ədəbiyyatımıza dilimizə bahar təravəti, duyğusu, sevgisi bəxş edib: Biz körpəlikdə analarımızın layları ilə böyümüşük. Oxuyub yazmağı öyrənəndən sonra isə gənclik zövqümüzün formalaşmasında Cəfər Cabbarlı dramaturgiyasının çox böyük xidməti var. O, bizim ölməz sənətkarlarımızdandır. Yazıçı Anarın Cabbarlı haqqında yazdığı

Azad bir quşdum,
Yuvamdan uçdum.
Bir bağa düşdüm
Bu gənc yaşımda.

misrası elə sənətkarın öz taleyidir.

**Aparıcı:** O, Rusiya imperiyası dövründə dünyaya gəlmişdi, amma Xalq Cümhuriyyətini alqışlamışdır. Ona şeirlər həsr etmişdir. Qardaş Türkiyəyə şeirlər yazmışdır. Türk xalqının şanlı tarixindən bəhs edən “Trablis müharibəsi”, “Ədirnə fəthi”, “Bakı müharibəsi” əsərlərini yazmışdır.

**Aparıcı:** Onun əsərləri bizim ədəbiyyatın sərvətidir. “1905-ci ildə” əsərində bugünkü hadisələri görürük.

**Aparıcı:** Cabbarlının ən gözəl şeirlərindən biri “Ölkəm”dir. Bu şeirin sözlərinə mahnıda bəstələnmişdir.

*( Mahnı səslənir )*

**Aparıcı:** Bilirdinizmi görkəmli drammaturqumuz piano arzxasında özünü bəstəkar kimi də sınamışdır. Arxiv materiallarından, müasirlərin dediklərindən öyrənirik ki, o, musiqi təhsili almasa da musiqinin məftunu olub. Bu məftunluqda onu royalın arxasına musiqi bəstələməyə çəkib.

**Aparıcı:** Həyat yoldaşı Sona xanım xatirələrində deyirdi ki, bir əsər yazmağa başlamazdan qabaq royalın arxasına keçər əvvəl qəhrəmanlardan birinin mahnısını fikirləşərdi. Bəzən xalq mahnılarındanda bəhrələnərdi. Sevili yazmamışdan qabaq iki ay bu mahnını oxuyurdu.

Sənə nə olub, zalım yar,
Qadan-balan alım yar.
Sənki belə deyildin,
Səni bir öyrədən var.

**Aparıcı:** Görkəmli dramaturq Azərbaycanın bəstəkarlıq məktəbində “Azad bir quşdum”, “Gərək günəş dağları aşıb

sönməyəydi", "Sənin ardınca", "Mənbir solmaz duyğuyam ki", "Zalım yar" mahnıları ilə yaşayır.

**Aparıcı:** Onun milli yöndə yazdığı, Cümhuriyyət öncəsi qardaş Osmanlı türklərinin tarixi mücadiləsinə həsr etdiyi əsərləri və bu topluya daxil olan *"Ulduz və ya Trablis müharibəsi"* və *"Ədirnə fəthi"* dramlarını da dövrünün gəncləri arasında ərazi bütövlüyünün qorunması, torpaqların müdafiəsi uğrunda vətənpərvərlik hisslərini coşduran uğurlu səhnə əsərləri hesab etmək olar. "Ədirnə Fəthi"nin mövzusu qardaşı Türkiyə xalqının mübarizə dolu tarixinin yaxın keçmişindən götürülmüşdür. Əsərin əsas mövzusunu itirilmiş Ədirnə torpaqları uğrunda türk xalqının apardığı mübarizə və vətənpərvərlik təşkil edir. "Ədirnə fəthi" faciəsini gənc Cabbarlı 1917-ci il oktyabrın 17-də bitirmiş, əsər elə həmin il, dekabrın 15-də tamaşaya qoyulmuşdur. Pyesin əsas məzmunu Balkan müharibələri dövründə təslimçi, riyakar mövqe tutmuş hakim dairələrə qarşı türk xalqının qəzəbi, itirilmiş Ədirnə torpaqları uğrunda vətənpərvərlik hərəkatı, qəhrəmanlıq və rəşadəti təşkil edir.
Mövzusu günümüzlə səsləşən bu əsər, teatr səhnələrimizdə aktyorlar tərəfindən hələdə oynanılır. Kitabxanada vətənpərvərliyin təbliği ilə keçirilən tədbirlərdə oxucularla bu tamaşaya baxış təşkil edə bilərik. Tamaşaya baxış həm C.Cabbarlı yaradıcılığının, həm milli vətənpərvərlik mövzusunun aşılanmasına kömək edər.

Kitabxanada yuxarı sinif şagirdləri həmin əsərdən bir parçanı səhnələşdirə bilərlər. Əsərdən bir parçanı təqdim edirik:

*(Məclis vaqe olur Ədirnədə. Səhnə qurulur.)*

*Səhnəyə oxucular gəlir: Ənvər paşa, Məhəmməd Əmin.*

**Ənvər:** (müraciətlə) Oğlanlarım, qardaşlarım! Bilirəm, bu üç gündə böyük əziyyətlər çəkdiniz. Fəqət, nə yapmalı? Biz xainlik qəsdində deyilik, yalnız tapdanmış namusumuzun iddiasına çalışırıq, görürmüsünüz şu qabağınızda səmalara yüksələn minarələri? Onlar bizim şanlı əcdadımızın mədfənidir ki, hələ düşmən ayaqlarında əzilsək də, onlar sizə haqlı olaraq nifrin ediyorlar. Deyirlər ki, biz sizinçün böyük Osmanlı məmləkəti yaratdıq, biz türk bayrağını göylərə qaldırdıq. Fəqət, siz bizim kəmiklərimizi bir ovuc bolqar canavarlarına çəkan etdiniz. Biz, bu gün onlara sübut etməliyik ki, bizim damarlarımızda olan türk qanı donmamış, o qan rəzalət qəbul etməz. O qan bütün türklərin düşmənə qarşı boyun əyməsinə yol verməz. Qardaşlar, bu gün bütün Türkiyə aləmi gözünü bizə dikib. Bizdən tapdanmış hüquqlarının, şərəflərinin qaytarılmasını tələb ediyor. Bu gün məmləkətin ümidi yalnız sizdədir. İştə vətən səcdəgahı Ədirnəyə baxınız. Düşmən önünüzdə, silah əlinizdə, şu imtahan meydanında türklüyünüzü bildirməlisiniz. Haydı, qardaşlar, irəli gedəcəyik, Ədirnəyə doğru!..
*(Məhəmməd Əmin donunun bir qolunu geymiş, başıaçıq, ayaqyalın başıpozuqlarla gəliyor.)*

**Məhəmməd Əmin:** Qardaşlar! Düşmən Allahın silləsini yeyərək yıxılmada, şanlı əcdadımız sizdən yardım gözləməkdə, məmləkət sizdən ümid etməkdə, bacılarınız, analarınız əllərində Quran məhz yaşlı gözlərlə sizlərə dua etməkdədirlər. Hər kəs sizdən kömək diləyir. Dediyiniz yerlərdən bütün türklük, göylərdən bütün mələklər, Ədirnənin müqəddəs torpaqları altında şanlı əcdadımız hamsı bir səslə sizə deyir:

Arş əsgəri-islam, ulu Kəbən gediyor, arş!
Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş.

**Məhəmməd Əmin:** Bolqar çarığı, qəbri Süleymanamı bassın?
Yunan xaçını minbəri-Əyyubəmi taxsın?
Hərblər ayağı zilli –kəramətimi silsin,
Arş, əsgəri-islam, ulu Kəbən gediyor arş!
Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş.
*(Məhəmməd Əmin söyləyir, bitir.)*

**Ənvər:** ...Ey mədəniyyət adı altında bütün dünyanı qara qüvvələrə tabe etmək istəyən əjdahalar, atın! O qara zəncirlərin altında ağ çöhrəli qara vicdanlı Qərb dayanmışsa, sənin də ardında zəngin çöhrəli, parlaq ürəkli gələcək Şərq dayanmışdır.

Haydi, atın! Sizdən zülm, bizdən mükafat!
Arş, əsgəri-islam, ulu Kəbən gediyor, arş!
Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş!

Bolqar çarığı, qəbri-Süleymanamı baxsın?
Yunan xaçını minbəri-Əyyubəmi taxsın?
Hərblər ayağı zilli-kəramətimi silsin,

Arş, əsgəri-islam, ulu Kəbən gediyor, arş!
Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş!

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**
**Əsərləri**

Əsərləri. - Bakı : Qələm , 2013. - 464 s.

Bir Türk milliyyətçisinin Stalinə ixtilal xatirələri. - Bakı : Qanun, 2010. - 132 s.

Milli birlik : tarixi ədəbiyyat. - Bakı : Çıraq, 2009. - 176 s.

**Dövrü mətbuatda**

6 ay inqilab // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 20. - "Açıq söz" qəzetinin 29 avqust 1917-ci il tarixli 553-cü sayında dərc olunmuşdur.

Ağaoğlu Əhməd // 525-ci qəzet. - 2018. - 10 mart. - № 46. - S. 18-19.

Aşura // Füyuzat. - 2017. - № 4. - S. 60-62.

Azərbaycan davası // 525-ci qəzet. - 2018. - 26 may. - № 95. - S. 20. - 1954-cü ildə "Azərbaycan" aylıq kültür dərgisində çap olunmuşdur.

Azərbaycan Heyyəti-mürəxxəsəsi rəisi Rəsulzadə Əmin bəyin mühüm Bəyanatı // 525-ci qəzet. - 2018. - 9 iyun. - № 104. - S. 20-21. - "Yeni məcmuə"nin 25 temmuz (iyul) 1918-ci il tarixli 54-cü sayında İstanbulda dərc edilmişdir.

Azərbaycan şairi Nizami : Nizami Gəncəvi - 870 // Ədəbiyyat qəzeti. - 2012. - 2 iyun. - № 20. - S. 1, 3.

Azərbaycanda fikir həyatı: bir ideoloji bəhsi // 525-ci qəzet. - 2018.- 14 iyul. - № 125. - S. 20-21. - "Yeni Qafqasiya"nın 1 nisan (aprel) 1927-ci il tarixli 13-cü sayında dərc edilmişdir.

Azəri gənclər birliyi yığıncağında M.Ə.Rəsulzadənin mühazirəsi: Qərbdə və Şərqdə milli məsələ : V mühazirə // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20. - Sıra Şərqindir ; Alacağımız dərs. - "Yeni qafqasiya"nın 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü sayında dərc edilmişdir.

Bakı kəndlərinin müqəddəratı // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 21. - "Açıq söz" qəzetinin 5 sentyabr 1917-ci il tarixli 559-cu nömrəsində dərc edilmişdir.

Bakı uyezdi haqqında üç nəzər // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 20-21. - "Açıq söz" qəzetinin 19 sentyabr 1917-ci il tarixli 569-cu sayında dərc edilmişdir.

Bəsirət (gözüaçıq, uzaqgörənlik) gərək! // 525-ci qəzet. - 2018. - 3 fevral. - № 22. - S. 14. - İlk dəfə "Bəsirət" qəzetinin 12 aprel 1914-cü il tarixli 1-ci sayında dərc edilmişdir.

Bəyani-təsəvvür fi xüsusi lisan // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – 82-86.

Bizim mövqeyi-nəzərdən Rusiyada cümhuriyyəti-ənam (xalq cümhuriyyəti) // 525-ci qəzet. - 2018. - 17 fevral. - № 32. - S. 20. - "Qardaş köməgi" məcmuəsinin may 1917-ci il tarixli 1-ci sayında dərc edilmişdir.

Bu nədir? // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20. - "Açıq söz" qəzetinin 5 iyul 1917-ci il tarixli 513-cü sayında dərc edilmişdir.

Bütün Azərbaycan əhalisinə // 525-ci qəzet. - 2018. - 1 dekabr. - № 213. - S. 20. - "Azərbaycan" qəzetinin 29 noyabr 1918-ci il tarixli 52-ci sayında dərc edilmişdir.

Cahan hərbinin təsiri ; Sıra Şərqindir ; Alacağımız dərs // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 20-21. - "Yeni Qafqasiya" dərgisinin 16 nisan (aprel) 1927-ci il tarixli 14-cü sayında və Rəsulzadə M.Ə. "Yeni Qafqasiya" yazıları (1923-1927) (Ankara : 2017. - S. 371-376.) kitabında dərc edilmişdir.

Camaət idarəsi // 525-ci qəzet. - 2018. - 20 yanvar. - № 12. - S. 20-21. - İlk dəfə "Açıq söz" 5, 13 aprel 1917-ci il tarixli 442, 449-cu saylarında dərc edilmişdir.

Cümhuriyyəti-ənam (Xalq Cümhuriyyəti) şüarı, Kadet firqəsi və müsəlmanlar // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 21. - İlk dəfə "Açıq söz" qəzetinin 31 mart 1917-ci il tarixli 438-ci sayında dərc edilmişdir.

Dil – ictimai mühüm bir amil // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.65-67.

Əksinqilab // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 20-21. - "Açıq söz" qəzetinin 30 avqust 1917-ci il tarixli 554-cü sayında dərc edilmişdir.

Federalizm və demokratizm // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 25 iyul 1917-ci il tarixli 528-ci sayında dərc edilmişdir.

Fitnələr həqqində // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20-21. - "Açıq söz" qəzetinin 30 iyun 1917-ci il tarixli 509-cu sayında dərc olunmuşdur.

Gürcü politikaçıları // 525-ci qəzet. - 2018. - 3 fevral. - № 22. - S. 15. - "Açıq söz" qəzetinin 6 sentyabr 1917-ci il tarixli 560-cı sayında dərc edilmişdir.

Hər könüldə sənin izin : Məhəmməd Əmin Rəsulzadənin sitatları // Ulduz. - 2022. - № 01(632). - S. 10-13.

Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfər) // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 20-21. - "İstiqlal" qəzetinin 31 mayıs 1919-cu il tarixli 17-ci sayında dərc edilmişdir.

Həşəmətli bir gün (Müsavat məsləkinin elani-zəfəri) // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 21. - "İstiqlal" qəzetinin 31 may 1919-cu il tarixli 17-ci sayında dərc edilmişdir.

Hürriyyət qarşısında // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 21. - İlk dəfə "Açıq söz" qəzetinin 7 mart 1917-ci il tarixli 420-ci sayında dərc edilmişdir.

İbrət günləri // Azərbaycan : qəzet. - 2018. - 4 mart. - № 50. - S. 6. - "İqbal", № 377, 5 iyun 1913.
İki "Leyli və Məcnun" : Nizami Gəncəvi - 870 // Ədəbiyyat qəzeti. - 2012. - 8 sentyabr. - № 33. - S. 3. - Məqalə ilk dəfə 1941-ci il 6 noyabr tarixində Buxarestdə dərc olunub.

İki baxış ortasında // 525-ci qəzet. - 2018. - 3 mart. - № 42. - S. 21. - "Açıq söz" qəzetinin 27 mart 1927-ci il tarixli 440-cı sayında dərc edilmişdir.

İstanbulun ikinci fəthi : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 16 fevral. - № 32. - S. 20. - İlk dəfə "Yeni Qafqasiya" dərgisinin 15 oktyabr 1923-cü il tarixli 2-ci sayında dərc edilib.

İstiqlal // 525-ci qəzet. - 2018. - 19 may. - № 90. - S. 20-21. - "İstiqlal" qəzetinin 4 şubat (fevral) 1919-cu il tarixli 1-ci sayında dərc edilmişdir.

Kazan türkləri // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 20. - "Yeni Qafqasiya"nın 15 aprel 1926-cı il tarixli 11-ci sayında dərc edilmişdir.

Qurtuluş bayramı : Novruz - Yeni gün! // Füyuzat. - 2012. - № 2. - S. 36-37. - Məqalə ilk dəfə "Aşıq söz" dərgisinin 8 mart 1916-cı il tarixli 130-cu sayında dərc edilmişdir.

Lenin öldükdən sonra : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 21. - "Yeni Qafqasiya"nın 1 şubat (fevral) 1924-cu il tarixli 9-cu sayında dərc edilmişdir.

Mayıs duyğuları : şeir // Füyuzat. - 2012. - № 3. - S. 31.

Məclisi-müəssisan seçkiləri // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 20-21. - "Açıq söz" qəzetinin 26 noyabr 1917-ci il tarixli 613-cü sayında dərc edilmişdir.

Məclisi-Müəssisana hazırlaşalım // 525-ci qəzet. - 2018. - 20 yanvar. - № 12. - S. 20. - İlk dəfə "Aşıq söz" qəzetinin 16 mart 1917-ci il tarixli 425-ci sayında dərc edilmişdir.

Məsuliyyətimiz artdı // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 20-21. - "Azərbaycan" qəzetinin 29 avqust 1919-cu il tarixli 263-cü sayında dərc edilmişdir.

Millət məfhumu və istiqlal // 525-ci qəzet. - 2018. - 14 aprel. - № 66. - S. 20. - "Yeni Qafqasiya" dərgisində 1927-ci ildə 27

mayısda 17-ci sayda dərc edilib.

Millətlər qurultayı // 525-ci qəzet. - 2018. - 10 fevral. - № 27. - S. 28. - "Açıq söz" qəzetinin 10 sentyabr 1917-ci il tarixli 563-cü sayında dərc edilmişdir.

Millətlərin hüququ və hərəkətləri // 525-ci qəzet. - 2018. - 27 yanvar. - № 17. - S. 20. - İlk dəfə "Aşıq söz" qəzetinin 8 dekabr 1917-ci il tarixli 624-cü nömrəsində dərc edilmişdir.

Milli Azərbaycan hərəkatının xarakteri // Füyuzat. - 2012. - № 3. - S. 37-39.

Milli dirilik // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.61-65.

Milli hal və hissiyyat // 525-ci qəzet. - 2018. - 5 may. - № 81. - S. 21. - "Açıq söz" qəzetinin 24 dekabr 1917-ci il tarixli 636-cı sayında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Rəsulzadə Məhəmməd Əmin bəyin mühazirələri // 525-ci qəzet. - 2018. - 21 iyul. - № 130. - S. 20-21. - "Yeni Qafqasiya"nın 16 kanuni əvvəl (dekabr) 1926-cı il tarixli 5-6-cı saylarında dərc edilmişdir.

Milliyyət məbdəinin (prinsipinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi mohzərində (yığıncağında) M.Ə.Rəsulzadənin mühazirələri : IV mühazirə // 525-ci qəzet. - 2018. - 22 sentyabr. - № 164. - S. 21. - Cənub Slavlarında milliyyətçilik ; Lehistan

Milliyyət məbdəninin (prinsipinin) Avropada qələbəsi: Azəri Gənclər Birligi yığıncağında M.Ə.Rəsulzadənin mühazirələri : V mühazirə // 525-ci qəzet. - 2018. - 29 sentyabr. - № 169. - S.

20. - "Yeni Qafqasiya"nın 1 nisan (aprel) 1927-ci il tarixli 13-cü sayında dərc edilmişdir.

Moskva şurası // 525-ci qəzet. - 2018. - 21 aprel. - № 71. - S. 21. - "Açıq söz" 13 avqust 1917-ci il tarixli 539-cu sayında dərc edilmişdir.

Müasir İranın həqiqi çöhrəsi // 525-ci qəzet. - 2018. - 17 noyabr. - № 203. - S. 20-21. - "Yeni Qafqasiya"nın dekabr 1924-cü il tarixli 5-ci sayında dərc edilmişdir.

Nə böyük bayram // 525-ci qəzet. - 2018.- 2 iyun. - № 99. - S. 21. - "Azərbaycan" qəzetinin 28 mayıs 1919-cu il tarixli 190-cı sayında dərc edilmişdir.

Ordumuz zəfərdə : 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin zəfərlər tarixindən səhifələr // 525-ci qəzet. - 2019. - 18 may. - № 77. - S. 20. - "Azərbaycan" qəzetinin 6 nisan 1920-ci il tarixli 68-ci sayında dərc edilmişdir.

Sosializm həqqində // 525-ci qəzet. - 2018. - 7 aprel. - № 61. - S. 21. - "Açıq söz" qəzetinin 25 iyun 1917-ci il tarixli 506-cı sayında dərc edilimişdir.

Tutacağımız yol // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S.60-61.

Türk Harsının rus kommunizminə müqaviməti // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 20. - "Yeni Qafqasiya"nın 1 şubat (fevral) 1927-ci il tarixli 8-9-cu saylarında dərc edilmişdir.

Türkiyə məəsləsi // 525-ci qəzet. - 2018. - 2 iyun. - № 99. - S. 21. - "İstiqlal" qəzetinin 17 şubat (fevral) 1920-ci il tarixli 6-cı sayında dərc edilmişdir.

Türkiyə-İran dostluğu : İlk Cümhuriyyətimiz: olmuşlar və düşüncələr // 525-ci qəzet. - 2019. - 5 yanvar. - № 2. - S. 21. - "Yeni Qafqasiya"nın 15 may 1926-cı il tarixli 13-cü sayında dərc edilmişdir.

Ümumrusiya müsəlman syezdi : xatirələr və təəssürat // 525-ci qəzet. - 2018. - 17 mart. - № 51. - S. 20. - İlk dəfə "Açıq söz" qəzetinin 21, 23 may 1917-ci l tarixli 478, 479-cu saylarında dərc edilmişdir.

Vətən mühərriri Bakıda // 525-ci qəzet. - 2018. - 6 oktyabr. - № 174. - S. 20-21. - "Yeni Qafqasiya"nın 15 may 1924-cü il tarixli 16-cı sayında dərc edilmişdir.

Yeni lisançılar və türkçülər // Turanın bir eli var və yalnız bir dili var. – B.: Yom yayınları, 2007. – S. 68-74.

**Haqqında**

**Bayandur İ.** Qana bələnmiş tarix. - Bakı : Qanun, 2007. - 358 s.

**Elçin.** Seçilmiş əsərləri : 10 cilddə. VIII cild. - Bakı : Çinar-çap, 2005. - 551 s.

**Qurban T**. Dirilik gəmisi : tarixi dram. – B.: Şirvannəşr, 2008. – 148 s.

**Qurban T.** Dönməzlik . - Bakı : Qanun, 2011. - 144 s.

Rəsulzadə Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu (31 yanvar 1884 , Bakı, Novxanı – 6 mart 1955, Türkiyə) // Azərbaycan Xalq Cümhuriyyəti Respublkiası Ensiklopediyası. 2 cilddə. II cild. – B.: Lider, 2005. - S.301-305.

**Yaqublu N.** Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. – B.: Ol MMC, 2013. – 506 s.

**Dövrü mətbuatda**

M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 dekabr 2023-cü il) // Xalq qəzeti. – 2023. – 31 dekabr. - №288. – S. 2

**Abbaslı T**. Vətənə tən Vətəndaş : İlk Cümhuriyyət növrağımızın, bir daha enməyəsi bayrağımızın banisi - Məhəmməd Əmin Rəsulzadə // Mədəniyyət. - 2014. - 31 yanvar. - № 8. - S. 10.

**Abdullayev Ç.** Almaniyada Azərbaycan legionu // Mədəni - Maarif. - 2006. - № 1. - S.32-35.

Akademik Milli Dram Teatrında Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçiriləcək // Kaspi. - 2014. - 31 yanvar. - № 17. - S. 13.

**Allahmanlı M.** Qəhrəmanlıq tariximizə bir nəzər : Qaçaq Nəbi // Azərbaycan məktəbi. - 2012. - № 2. - S. 82-89.

**Anar.** Bir kərə yüksələn bayraq : Nəcibə Bağırzadənin "Uzaqdakı yaxınlar" kitabına ön söz // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 3.

**Babaşlı M**. "Nicat" cəmiyyətinin mədəni-maarifçilik fəaliyyəti // Füyuzat. - 2016. - № 1. - S. 16-20.

Bir kərə yüksələn bayraq bir daha enməz : Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması haqqında // Ədəbiyyat qəzeti. - 2006. - 26 may. - S.1.

Bir yüzillikdə iki müstəqillik şirinliyi : Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bağlı tarixçi Maarif Teymurla müsahibə // Azərbaycan müəllimi. - 2006. - 26 may. - S.2.

**Cəfərov N**. Ümid edəlim ki : "Öylə olmaz ki, bu gün hər millətin öz kökü üstə bitməsi tərəfdarı olanlar...bizləri eşitməyə qadir olmasın"... // Ədəbiyyat qəzeti. - 2017. - 20 yanvar. - № 2. - S. 10.

**Dadaşov A**. Azərbaycançılıq fədaisi : Məhəmməd Əmin Rəsulzadə // Füyuzat. - 2016. - № 1. - S. 42-48.

**Dünyaminqızı Q.** Varislik məsuliyyətni layiqincə daşıyaq : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 18-20.

**Dünyaminqızı Q**. Amalına və əməlinə sadiq insan : Milli müstəqilliyimizin, istiqlalımızın bayraqdarı Məhəmməd Əmin Rəsulzadənin anadan olmasından 129 il ötür // Kaspi. - 2013. - 31 yanvar. - № 17. - S. 12.

**Dünyaminqızı Q**. Bir ailənin faciəsi : Məhəmməd Əmin Rəsulzadənin ailə faciəsi // İşıq. - 2017. - № 3. - S. 44-47.

**Elzar**. Hürriyyətin Tarixi : Məmməd Əmin Rəsulzadə haqqında // Şəkər villası. - 2006. - 23 may. - S.3.

**Əhməd D**. Məhəmməd Əmin Rəsulzadənin bir fotoşəkli... // Mədəniyyət : jurnal. - 2020. - № Mart/Aprel. - S. 18-19.

**Əhməd D**. Parlamentin yadigarları // Füyuzat. - 2021. - № 3(119). - S. 38-43.

**Əhmədova F.** 1918. Mart soyqırımı : Azərbaycanlıların soyqırımı: tarix nə deyir? // Füyuzat. - 2011. - N 2. - S. 8-12.

**Əhmədova F**. Azərbaycan dövlətçilik tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Əliyev M.** Bu barədə ilk dəfə : Məhəmməd Əmin Rəsulzadə // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 13. - Məqalə ilk dəfə "Odlar yurdu" qəzetinin sentyabr 1988-ci il tarixli 17-ci sayında dərc edilmişdir.

**Əzimova A.** Məhəmməd Əmin Rəsulzadə maarif və mədəniyyət haqqında : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 21-22.

**Fərəcov S**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illiyinə həsr olunmuş tədbir // Mədəniyyət. - 2014. - 29 yanvar. - № 7. - S. 2.

**Fərhadov Ə**. M.Ə.Rəsulzadənin yaradıcılığında dini-siyasi məsələlər // Füyuzat. - 2015. - № 1. - S. 12- 17.

**Hacı S**. Məhəmməd Əmin Rəsulzadəyə görə Nizami Gəncəvinin milli və ədəbi kimliyi // Ədəbiyyat qəzeti. - 2017. - 29 aprel. - № 15. - S. 24-25.

Həyatını müstəqilliyimiz yolunda qurban verib : Məhəmməd Əmin Rəsulzadə haqqında // Tumurcuq. - 2014. - № 1. – S. 3.

**Həzi B**. Bir eşq romanı kimi : professor Qulu Məhərrəmlinin Məmməd Əmin Rəsulzadə əsəri haqqında düşüncələrim // Ədəbiyyat qəzeti. - 2023. - 23 dekabr. - № 50. - S. 21.

**Xalidoğlu S**. M.Ə.Rəsulzadənin I Dünya müharibəsi illərindəki mətbu fəaliyyəti // Kaspi. - 2014. - 30 yanvar . - № 16. - S. 23.

İstiqlalımızı qorumağa çağırış : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 28 yanvar. - № 17. - S. 4.

**Qaraca B**. Qarabağ general - qubernatorluğunun yaradılması : Xosrov bəy Sultanov haqqında // Azərbaycan. - 2014. - 29 yanvar. - № 18. - S. 7.

**Qəhrəmanov T**. Azərbaycan Milli qurtuluş hərəkatının böyük ideoloqu : Məhəmməd Əmin Rəsulzadə - 125 // Mədəniyyət. - 2009. - 31 yanvar. - S. 6.

**Quliyev V**. Məhəmməd Əmin Rəsulzadə "Qafqaz dağlıları" jurnalının səhifələrində // 525-ci qəzet. - 2021. - 5 iyun. - № 98. - S. 16-17.

**Quluzadə M**. Görkəmli siyasi və ictimai xadim : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Qurbanov A.** Ucalan bayraq enməyəcək : Azərbaycan Xalq Cümhuriyyəti - 90 // Füyuzat. - 2008. - № 3(41). - S. 26-30.

**M.Ə.** Rəsulzadənin **Nizami** Gəncəvidən tərcümələri // Ədəbiyyat qəzeti. - 2022. - 29 yanvar. - № 3. - S. 26. - Söz ; Sözçü ; İxtiyar qadın ilə Sultan Səncər ; Tuğlacı ixtiyar. altıncı məqalə.

**M.Ə.**Rəsulzadə : İnqilab nəğmələri, yaxud həbsxana şeirləri // Ədəbiyyat qəzeti. - 2022. - 11 iyun. - № 21. - S. 13.

**Manafova S.** Azərbaycanda müasir təhsilin təməlini qoyanlar // Psixoloq. - 2012. - 25 iyul. - № 7. - S. 6.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlanıb // Mədəniyyət. - 2014. - 22 yanvar. - № 5. - S. 3.

Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilmişdir // Azərbaycan : qəzet. - 2014. - 28 yanvar. - № 17. - S. 5.

Milli dəyərlərimizə sədaqətlə : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 9.

**Musayeva İ**. Məmməd Əmin Rəsulzadə Nizami Gəncəvi haqqında // Qobustan. - 2021. - № 2. - S. 7-14.

**Mustafa N**. Azərbaycan Xalq Cümhuriyyəti - dövlətçilik tariximizin parlaq səhifəsi // Xalq qəzeti. - 2022. - 26 may. - № 110. - S. 7.

**Mükərrəmoğlu M**. Tarixin bir səhifəsi : Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr olunmuş sərgi belə adlanır // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

Müqəddəs gün - 15 sentyabr zəfəri mühacir qələmində // Ulduz. - 2021. - N 9(628). - S. 73-76.

Novxanıda Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir // Azərbaycan. - 2014. - 31 yanvar. - № 20. - S. 5.

**Özcan Ö**. Mehmet Emin Resulzadenin Almanya ile ilişkiləri // Ədəbiyyat qəzeti. - 2020. - 12 iyun. - № 17. - S. 30-31.

**Rais** Rəsulzadə **:** "Bu adın arxasında böyük bir xalq dayanır" : "Varislər"in bugünkü qonağı Azərbaycan xalqının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri, xatirəsi, fəaliyyəti hər zaman hörmətlə anılan, bu gün başımız üstə dalğalanan üçrəngli bayrağı ilk dəfə qaldıran, üzünü bütün dünyaya tutub Azərbaycan səslənən böyük Məhəmməd Əmin **Rəsulzadə**nin nəvəsi Rais **Rəsulzadə**dir / söhbəti yazdı Ə.Qiyas // Ədəbiyyat qəzeti. - 2020. - 19 sentyabr. - № 40/41. - S. 2-4.

Rüstəmbəyli Rəfi (bəy). 27 aprel 1920-ci il xatirəsi // Füyuzat. - 2011. - № 6. - S. 8-12.

**Rüstəmli A**. M.Ə.Rəsulzadə və C.Cabbarlı: Qovuşan və ayrılan yollar // Ədəbiyyat qəzeti. - 2010. - 29 yanvar. - N 4. - S. 6.

**Sultanlı V.** Məhəmməd Əmin Rəsulzadənin ədəbi düşüncələri : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 14-17.

**Sultanova M**. Qədim türk dünyasının 105 yaşlı ocağı : Mehmet Öz: 1912-ci ildən bu günə qədər baxdıqda türk Oraqlarında nəhəng şəxsiyyətləri görürük. Azərbaycandan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə türkçülük cərəyanının qurucularındandır // Mədəniyyət. - 2017. - 7 iyul. - № 52. - S. 12.

**Süleymanlı M**. M.Ə.Rəsulzadənin mədəniyyət, millət və dövlət anlayışlarına kulturoloji baxışı // Füyuzat. - 2022. - № 1(123). - S. 12-19. ; № 2(124). - S. 12-15. ; № 3(125). - S. 24-29.

**Süleymanlı M**. Mirzə Bala Məhəmmədzadə və onun "Qurtuluş" məcmuəsindəki yazıları // Füyuzat. - 2016. - № 6. - S. 22-26. - məqalənin sonrakı sayı 2017-ci ildə yazılıb.

**Şükürlü M**. Rəsulzadə borcumuz : Məhəmməd Əmin Rəsulzadə - 130 // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 22.

**Tağısoy G**. Fədakar aydınlarımız millətin istiqlalı və istiqbalı yolunda : Türkçülük ideologiyasının yaranması // Mədəniyyət.az. - 2016. - № 1. - S. 76-78.

**Tahirli A**. Məhəmməd Əli Rəsulzadə: "Gəncəli şair, heç bir mübaliğəyə meydan verməmək üzrə ancaq və ancaq türk olmuşdur" : "Azərbaycan yurd bilgisi"nin bir məqaləsi haqqında // Ədəbiyyat qəzeti. - 2021. - 9 oktyabr. - № 40. - S. 17.

Tanıdım sizi... : M.Ə. Rəsulzadə və İosif Stalin // El. - 2011. - N 5. - S. 64-67.

Tarixdən boylanan gün - 28 may // Mədəniyyət. - 2008. - 28 may. - S. 1.

Tarixi yaradanlar: Məmməd Əmin **Rəsulzadə** // Xalq qəzeti. - 2023. - 15 noyabr. - № 248. - S. 9.

**Tohidi-Rüstəmova S**. İki dost, iki tale : Məhəmməd Əmin Rəsulzadə - 130 // Azərbaycan. - 2014. - 30 yanvar. - № 19. - S. 6.

**Turan A.** Məhəmməd Əmin Rəsulzadənin istiqlal şüarı - "Bir kərə yüksələn bayraq bir daha enməz" : Məhəmməd Əmin Rəsulzadə - 130 // Xalq qəzeti. - 2014. - 31 yanvar. - № 20. - S.

5.

**Turan A**. Rəsulzadə bizim üçün Vətən mehrabı qurdu // Ədəbiyyat qəzeti. - 2020. - 23 may. - № 15. - S. 14.

**Yaqublu N**. Biz hələ Rəsulzadəni çox öyrənməliyik : Məhəmməd Əmin Rəsulzadənin tədqiqatçısı Nəsiman Yaqublu ilə söhbət / yazdı T. Məhərrəmova // Kaspi. - 2014. - 30 yanvar. - № 16. - S. 8.

**Yaqublu N**. M.Ə. Rəsulzadə irsində Nizami yaradıcılığı : I məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 6 noyabr. - № 44. - S. 15.

**Yaqublu N**. M.Ə. Rəsulzadənin Nizami Gəncəvi araşdırmaları : II məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 13 noyabr. - № 45. - S. 13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin "Azərbaycan şairi Nizami" kitabı haqqında : III məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 20 noyabr. - № 46. - S. 12-13.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi araşdırmalarında yeniliklər : IV məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 4 dekabr. - № 47/48. - S. 20-21.

**Yaqublu N**. M.Ə.Rəsulzadənin Nizami Gəncəvi haqqında unudulmuş məqalələri : V məqalə // Ədəbiyyat qəzeti. - 2021. - 18 dekabr. - № 50. - S. 23.

**Zauroğlu M**. Gəncə üsyanı // Füyuzat. - 2020. - № 3(113). - S. 26-33.

# Azərbaycan ədəbiyyatının qeyri-adi istedad sahibi Cəfər Cabbarlı

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**